

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 40 (831) ▪ 12 oktyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

## Azərbaycan MDB məkanında öz liderliyini qoruyub saxlayır



Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. Dövlətimizin başçısı tədbirdə giriş nitqi ilə çıxış edib.

Prezident İlham Əliyev hazırda qlobal iqtisadiyyatda baş verən mənfi tendensiyaların davam etdiyini, 2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu bildirib: «Dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir. Təbii ki, neftin qiymətinin kəskin şəkildə düşməsi neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Eyni zamanda, neft ölkələrində öz kontraktlarını icra edən digər ölkələr də əziyyət çəkirlər. Çünki o ölkələrin şirkətləri kontraktları daha az həcmdə icra edir və beləliklə, bu böhran onlara da mənfi təsir göstərir».

Dövlətimizin başçısı dünyada siyasi və hərbi böhranların yaşandığını, müxtəlif bölgələrdə qanlı toqquşmalar, müharibələrin alovlandığını, risk və təhdidlərin artdığını, Avropada miqrant böhranının dərinləşdiyini xatırladaraq qeyd edib ki, bu cür tendensiyalar sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur. Baş verənlərə rəğmən, Azərbaycan neçə ildir ki, mədəniyyətlərarası dialoqu gücləndirir və bu, dünyada böyük rəğbət qazanıb: «Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik var. Bəzi insanlar indi də belə deməkdə davam edirlər ki, biz harasa inteqrasiya etməliyik. Bəlkə özləri də dərk etmirlər ki, bu, nə deməkdir. Biz hara lazımdırsa, artıq ora inteqrasiya etmişik. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır. Ancaq biz hara inteqrasiya etməliyik? Bəziləri deyirlər ki, kiminsə xoşuna gəlmək üçün, yaxud da ki, donor pulları əsaslandırmaq üçün biz Avropaya inteqrasiya etməliyik. Sual olunur, biz hansı Avropaya inteqrasiya etməliyik?

**Davamı 2-ci səhifədə**

## İstanbulda 23-cü Dünya Enerji Konqresi keçirilib

### *Azərbaycan Prezidenti İlham Əliyev Konqresdə iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresində iştirak etmək üçün oktyabrın 9-da Türkiyə Respublikasına işgüzar səfərə gəlib. Tədbirdən əvvəl dövlətimizin başçısı İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Dövlət başçıları əlaqələrimizin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliklərini bildiriblər, münasibətlərimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.




Səfər çərçivəsində Prezident İlham Əliyev BP şirkətinin baş icraçı direktoru Robert Dadli və Venesuela Respublikasının Prezidenti Nikolas Maduro ilə də görüşüb. Hər iki görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın vəziyyəti, əlaqələrin möhkəmləndirilməsi üçün səylərin artırılması və digər iqtisadi məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Oktyabrın 10-da İstanbulda 23-cü Dünya Enerji Konqresi işə başlayıb. «Yeni üfüqlərə qucaq açmaq» devizi altında keçirilən Konqresdə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Venesuela Prezidenti Nikolas Maduro Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi dəvəti əsasında iştirak ediblər. Dünya enerji sənayesinin liderləri, beynəlxalq təşkilatları, «beyin mərkəzləri»ni, universitetləri, enerji və sənaye qurumlarını təmsil edən 10 mindən çox nümayəndənin iştirak etdiyi Konqres çərçivəsində müxtəlif mövzularda ətraflı müzakirələr aparılıb.

Konqres iştirakçıları əvvəlcə iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhd zamanı şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Konqresin açılışında Dünya Enerji Şurasının həmsədri Yanqhun Deyvid Kim çıxış edərək, bu mötəbər tədbirin əhəmiyyətini vurğulayıb. O, yeni nəsil enerji mənbələrinin müəyyən edilməsinin və bərpa olunan enerji mənbələrindən istifadənin hazırda qarşıda duran əsas hədəflərdən olduğunu bildirib.

Türkiyənin Baş naziri Binəli Yıldırım Konqres çərçivəsində keçiriləcək 60-dan çox sessiyada enerji sahəsində aktual məsələlərə dair səmərəli müzakirələrin aparılacağını bildirib. Dünyada enerji mənbələrinin şaxələndirilməsinin, enerji məhsullarının təhlükəsiz daşınmasının önəmini vurğulayan Binəli Yıldırım Türkiyənin enerji sahəsində həyata keçirdiyi və iştirak etdiyi layihələrdən, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin önəmindən bəhs edib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev Dünya Enerji Konqresinin Türkiyədə keçirilməsini əlamətdar hadisə adlandırıb və bunu qardaş ölkənin dünya enerji siyasətindəki rolunun göstəricisi kimi qiymətləndirib: «Türkiyə enerji təhlükəsizliyi məsələlərinin həllində çox önəmli addımlar atır. Türkiyənin inkişafı, sabitliyi nəinki Türkiyəni sevən ölkələrə, ona dost olan ölkələrə, bütün dünyaya lazımdır. Çünki Türkiyə bu gün dünyanın enerji siyasətinin müəyyən edilməsində çox önəmli rol oynayır».

Azərbaycan Prezidenti Türkiyə ilə Azərbaycanın ortaq enerji layihələrindən bəhs edərək bildirib ki, bu layihələr dünya üçün böyük əhəmiyyət daşıyır: «İlk dəfə olaraq tarixdə biz Xəzər dənizini Aralıq dənizi ilə bağladıq və bu gün Azərbaycan nefti həm Türkiyəyə, həm də bu gün dünya bazarlarına ixrac edilir. Bu, bizə çox böyük xeyir gətirir. Bakı-Tbilisi-Ceyhan boru xəttini əziz qardaşım, hörmətli Prezident Ərdoğanla birlikdə 2006-cı ildə açdığımız andan bu günə qədər ötən 10 il ərzində Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində və digər sahələrdə əlaqələr daha da möhkəmlənib. 2007-ci ildən sonra isə Azərbaycan tarixdə ilk dəfə olaraq təbii qazı ixrac etməyə başlamışdır. Bakını Ərzurumla birləşdirən boru xətti çəkildi və beləliklə, biz Türkiyəyə təbii qazın ixracına başladıq».

Dövlətimizin başçısı bildirib ki, «Cənub» qaz dəhlizi bu gün dünya miqyasında ən böyük enerji layihələrindən biridir: «Cənub» qaz dəhlizinin sərmayə tutumu 45 milyard dollardır və dörd önəmli layihədən ibarətdir. Birincisi, TANAP-dır ki, bizim qazı Gürcüstan-Türkiyə-Yunanıstan sərhədinə çatdırır. Digəri Cənubi Qafqaz qaz kəməridir ki, Azərbaycan qazını Türkiyə sərhədinə gətirir. Üçüncüsü, Trans-Adriatik kəməridir və nəhayət dördüncüsü, «Şahdəniz» qaz yatağının ikinci fazasının işlənməsidir. Bu gün «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Azərbaycan və Türkiyə bu layihənin icrasında liderlik keyfiyyətlərini göstərirlər və bu, enerji təhlükəsizliyi üçün çox önəmli bir layihədir».

Tədbirdə çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dünya enerji siyasətinin inkişafına xidmət edən bu Konqresin uğurlu olacağına əminliyini bildirib. O, ölkəsinin Türkiyə və Çinlə enerji sahəsində əlaqələrin inkişafına xidmət edəcək layihələrindən də danışıb.

Konqresdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin Yaxın Şərq və Xəzər hövzəsi də daxil olmaqla dünya enerji qaynaqlarının üçdə ikisinin olduğu bölgədə yerləşdiyini bildirərək həmin ehtiyatların dünya bazarına çatdırılmasında ölkəsinin mühüm rol oynadığını söyləyib: «Əsasən Azərbaycan nefti olmaqla, Xəzər neftinin Ceyhan limanına nəqlini təmin edən Bakı-Tbilisi-Ceyhan neft kəmərini də həyata keçirmişik. Həmçinin Azərbaycanla birlikdə reallaşdırdığımız «Cənub» qaz dəhlizinin əsasını təşkil edən TANAP - Trans-Anadolu qaz boru kəməri layihəsini inşa edirik. TANAP və bu layihənin davamı olacaq Trans-Adriatik - TAP boru kəməri ilə Azərbaycanın təbii qazı Türkiyə ilə yanaşı, Avropa bazarlarına da çatdırılacaq».

Oktyabrın 13-də başa çatdırılması nəzərdə tutulan 23-cü Dünya Enerji Konqresi öz işini müxtəlif mövzular üzrə sessiyalarda davam etdirir.

## Dövlət başçısı paytaxtda yeni yaradılan parklarla tanış olub

Oktyabrın 6-da Bakının Xətai rayonunda «Sevirəm» park kompleksinin açılışı olub. Dövlətimizin başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak ediblər.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan park kompleksi barədə məlumat verərək bildirib ki, yeni park kompleksinin ümumi ərazisi 3,2 hektardır. Aparılan geoloji işlər nəticəsində neft tullantıları və mərmər tozu aşkar edilən ərazi təmizlənəndən sonra 2016-cı ilin iyununda burada parkın yaradılmasına və tikinti işlərinə başlanılıb və sentyabrda başa çatdırılıb.

Ərazisi münbit torpaqla örtülən parkın uzunluğu 288 metr, eni isə 110 metrdir. Park kompleksinin üç girişi var. Yaşıllaşdırma zamanı IDEA - Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin təşəbbüsü ilə parkda ağacəkmə kampaniyası keçirilib. Ərazidə 4 mindən artıq müxtəlif növ ağac, o cümlədən 30 illik Eldar şamı, 35 illik sərv, 12 illik tuya ağacları əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb. Ərazidə təbii daşlardan yonulmuş heykəllər landşaftla vəhdət təşkil edir. Parkda qoyulmuş 14 heykəlin hər biri xüsusi dizaynı və üslubu ilə fərqlənir. Müxtəlif mövzularda olan bu heykəllər Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilmiş «Daşın nəğməsi» birinci Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində müxtəlif ölkələrdən olan heykəltəraşların yaratdıqları əsərlərdir.

Parkda, həmçinin, Heydər Əliyev Fondunun dəstəyi ilə «Ürəklər» kompozisiyası təqdim olunur. Bu kompozisiya Bakıya, təbiətə, insanlara olan sevgini əks etdirir. Yeni istirahət guşəsinin ərazisində yaradılmış şəlalədə dekorativ və təbii daşlardan istifadə olunub. Burada uşaqlar üçün əyləncə meydançası və yelləncəklər quraşdırılıb. Kompleksin ərazisində iki yerdə avtodayanacaq, bir dekorativ perqola - keçid və kafe var. Ərazidə yanğınsöndürən maşınlar və velosipedçilər üçün hərəkət zolaqları da salınıb. Parkın ərazisində, həmçinin «GreenCar» mərkəzi tərəfindən elektriklə işləyən nəqliyyat vasitələrinin enerjidoldurma stansiyası quraşdırılıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva yeni park kompleksində ağac əkiblər.

Həmin gün dövlətimizin başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva Bakının Nəsimi rayonunda yeni salınan «Qızılgül bağı» parkında yaradılan şəraitlə də tanış olublar. Dövlətimizin başçısına məlumat verilib ki, park «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin uzun müddət istifadə olunmayan Radio Mərkəzinin 1906-cı ildə inşa edilən binasının ərazisində salınıb. Ümumi sahəsi 6300 kvadratmetr olan istirahət parkı dünyanın məşhur şirkətinin dizaynı əsasında layihələndirilib. Təmir işləri yüksək keyfiyyətlə, müasir tələblər səviyyəsində və qısa vaxtda həyata keçirilib. Əvvəllər Radio Mərkəzinin binası kimi fəaliyyət göstərən tikili də yenidən qurulub. İndi bura kafe kimi fəaliyyət göstərəcək. Təmir zamanı qədim binanın tarixi element və fiqurları yüksək keyfiyyətlə bərpa edilib. Bu isə binanın xarici görünüşünün qorunub saxlanılmasına, eyni zamanda, müasir memarlıqla uzlaşdırılmasına geniş imkanlar yaradıb.

Parkda aparılan abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən geniş yaşıllaşdırma işləri də diqqəti cəlb edir. Bu işlər görülərkən ərazidə mövcud olan çoxillik ağaclar saxlanılıb. Bundan başqa, parkda 200-dən çox müxtəlif növ yeni ağaclar, gül və bəzək kolları əkilib.

### BU NÖMRƏMİZDƏ

«TAX FREE» İSTİFADƏÇİLƏRİ ÜÇÜN YENİ İNTERNET SAYTI — 2

VERGİ SAHƏSİNDƏ KADR HAZIRLIĞI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR — 3

SADƏLƏŞDİRİLMİŞ VERGİ ÖDƏYİCİLƏRİ ÜÇÜN KÖMƏKÇİ VƏSAİT — 4

ELEKTRON XİDMƏTLƏR ÜZRƏ İNZİBATİ REQLAMENTLƏR YENİ REDAKSİYADA... — 5

# Azərbaycan MDB məkanında öz liderliyini qoruyub saxlayır

**Əvvəli 1-ci səhifədə**



2017-ci ildə dövlət investisiya layihələrinin icra olunması, inflyasiyanın birrəqəmli həddə saxlanması və süni qiymət artımına yol verilməməsi istiqamətində ciddi tədbirlər görüləcək

Bax, bugünkü Avropa göz qabağındadır. Özləri etiraf edirlər, Avropa İttifaqının ən böyük rəhbərləri etiraf edirlər ki, indi Avropa məkanında dərin böhran yaşanır. Biz oramı inteqrasiya etməliyik, böhranamı inteqrasiya etməliyik?! «Müsəlmanlara stop» deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?! Bax, sual bundan ibarətdir və biz bunların hamısını deyirik. Ona görə də bəzi hallarda bizə qarşı təzyiqlər də olur, kampaniyalar da aparılır, müxtəlif iftiralar da uydurulur. Bax, biz bu reallığı bilməliyik».

Azərbaycan Prezidenti bildirib ki, biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik: «Avropa İttifaqına üzv olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlərimiz var. Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə də əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik. Amma biri var əməkdaşlıq, biri də var inteqrasiya. Bax, bu iki sözün arasında fərqi bilməyənlər bu gün bir daha eşitsinlər və yersiz, özlərini təbliğ etmək, kiminsə xoşuna gəlmək üçün söz-söhbətlərə son qoysunlar».

Dövlətimizin başçısı Azərbaycanda siyasi və iqtisadi islahatların davam etdirilməsinə diqqət çəkərək, ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumun keçirildiyini xatırladıb: «Referendum demokratik, ədalətli, tam şəffaf şəkildə keçirilmişdir. Yüzdən çox xarici müşahidəçi referendumu izləmişdir. Bir neçə beynəlxalq rəy sorğusu agentliyi exit-poll keçirmişlər. Exit-pollun nəticələri və rəsmi nəticələr üst-üstə düşür. Bu da təbiidir. Çünki referendum tam şəffaf, ədalətli keçirildi. Mənə verilən son məlumata görə, Mərkəzi Seçki Komissiyasına təqribən cəmi 20, ya ondan bir qədər çox şikayət daxil olmuşdur. Bizim beş mindən çox seçki məntəqəmiz var. Cəmi 20, bəlkə də bir qədər çox şikayət olub. Bu, nəyi göstərir? Onu göstərir ki, insanlar, Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır».

Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndiyini qeyd edən Prezident İlham Əliyev bir çox beynəlxalq təşkilatların ölkəmizə dəstək nümayiş etdirdiyini diqqətə çatdırıb: «Bu təşkilatlar arasında iki təşkilatı xüsusilə qeyd etmək istərdim. Biri İslam Əməkdaşlıq Təşkilatıdır ki, builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaratmışdır. Kontakt qrupu artıq öz işinə başlayır. Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu. Bu yaxınlarda Qoşulmama Hərəkatının - BMT-dən sonra ən çox üzvü olan bu təşkilatın Zirvə görüşündə də növbəti dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərar qəbul edildi. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur».

İqtisadi sahədə vəziyyəti qiymətləndirən dövlətimizin başçısı bildirib ki, neftin qiymətinin düşməsi nəticəsində dövlət investisiyaları azaldılıb, tikinti sektoruna az sərmayə qoyulub və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxarıb: «Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir. Sosial layihələr icra edilib. İyirmi doqquz məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri icra edilir, 154 min iş yeri yaradılıbdır, onlardan 121 mini daimi iş yeridir. Doqquz ayda 36 min iş yeri bağlanıbdır. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq - 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanıb. Bu, çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir».

«Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra edilməsi, Azərbaycanın çox önəmli nəqliyyat mərkəzinə çevrilməsi və digər nəqliyyat-infrastruktur layihələri haqqında danışan dövlətimizin başçısı bu infrastrukturları yaratmaqla ölkəmizin uzunmüddətli siyasi, iqtisadi maraqlarının təmin ediləcəyini bildirib. Prezident İlham Əliyev 2016-cı ilin iqtisadi nəticələrini bütövlükdə yaxşı hesab etdiyini, bununla belə, bu ilin ölkə iqtisadiyyatı üçün ən çətin, ağır il olduğunu qeyd edib.

İclasda yekun nitqi söyləyən Prezident İlham Əliyev ilin sonuna qədər qalan bütün vəzifələrin, o cümlədən investisiya layihələrinin, dövlət investisiya proqramının icra edilməli olduğunu diqqətə çatdırıb: «Biz bu il çox ciddi iqtisadi islahatlar aparmışıq və bu islahatlar artıq öz nəticələrini verməkdədir. İdarəetmə istiqamətində, digər sahələrdə, ixracı stimullaşdırmaq, idxaldan asılılığı azaltmaq üçün bir çox önəmli qərar və sərəncamlar qəbul edildi, imzalandı. Beləliklə, əminəm ki, gələn il həm idxalın azalması, həm ixracın artırılması istiqamətində çox yaxşı nəticələr olacaq».

Dövlətimizin başçısı aparılan islahatların dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirildiyini, Davos Dünya İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq gördüyünü xatırladıb. Qeyd edib ki, MDB məkanında biz həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

2017-ci ilin dövlət büdcəsi barədə fikirlərini bildirən Azərbaycan Prezidenti büdcədə bütün sosial proqramların öz əksini tapmalı olduğunu vurğulayıb: «2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə gedə bilməzdi. Nə kənd təsərrüfatı, nə turizm, nə digər sahələr inkişaf edə bilməzdi. Ona görə, dövlət investisiya qoyuluşu xüsusi əhəmiyyət daşıyırdı və biz son illər ərzində bu layihələrin bir çoxunu artıq icra etmişik. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik».

Prezident İlham Əliyev biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atıldığını, 2017-ci ildə bu istiqamətdə mühüm işlərin görülməsi, dövlət investisiya layihələrinin icra olunması, inflyasiyanın birrəqəmli həddə saxlanması və süni qiymət artımına yol verilməməsi üçün ciddi tədbirlərin görülməsini tapşırıb. Bank sektorunda islahatların aparılmasının, konsolidasiya siyasətinin davam etdirilməsinin zəruriliyinə toxunan dövlətimizin başçısı ölkəmizin sənaye potensialının artırılması, bölgələrdə sənaye zonalarının yaradılması prosesinin sürətləndirilməsi və s. istiqamətlərdə də məqsədyönlü tədbirlərin davam etdiriləcəyini bəyan edib.

Azərbaycan Prezidenti daxili bazarın qorunması üçün tədbirlər görüldüyünü, xaricdən gətirilən bəzi mallara rüsumların artırıldığını, yerli istehsalın həcminin çoxaldılması sahəsində əlavə işlərin görülməsinin vacibliyinə toxunub. Kənd təsərrüfatının inkişafı üçün dövlət dəstəyinin artırılacağını və subsidiyaların verilməsində ciddi addımlar atıldığını, «Made in Azerbaijan» brendinin yaradıldığını, sahibkarlığın inkişafına maliyyə dəstəyi göstəriləcəyini qeyd edib. Ailə biznesinə «ASAN dəstək» sistemini yaradıldığını deyən dövlətimizin başçısı «ASAN xidmət» mərkəzlərinin sayının artırılacağını, «ASAN viza» sisteminə keçidin təmin olunduğunu vurğulayıb.

## Dövlət büdcəsinə daxilolmalar üzrə proqnoz tapşırığı yerinə yetirilib

2016-cı ilin yanvar-sentyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 4 milyard 926 milyon 187,0 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,2% əməl edilib. Dövlət Neft Şirkəti büdcə qarşısındakı vergi öhdəliklərinə 100,6% əməl etsə də, Hasilatın Pay Bölgüsü üzrə (PSA mənfəət) proqnoz tapşırığı kəsrlə, yəni 82,0% icra olunub. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 3 milyard 843 milyon 653,9 min manat vəsait daxil olub, proqnoz tapşırığına 101,7% əməl edilib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 365 milyon 969,9 min manat və ya 10,5% çoxdur. Hesabat dövründə respublika üzrə 89.101 vergi ödəyicisi qeydiyyata alınıb.

Oktyabrın 1-i tarixinə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 739.297 olub ki, bu da ötən ilin eyni dövründə qeydiyyatda olan vergi ödəyicilərinin sayından 12,2% çoxdur.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 89,7% təşkil edib.

## Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri

2016-cı ilin 9 ayı ərzində vergi ödənməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 339 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 54 milyon 14 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib ki, bu da 2015-ci ilin eyni dövrü ilə müqayisədə 9 milyon 751 min manat çoxdur. 175 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsində 719 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 11 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 95 iş üzrə 109 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 35 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 274 şəxsin məcburi qaydada gətirilməsi, 504 şəxsin tapılaraq istintaqa gəlmələri, 591 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 120 nəfər vergi ödəyicisi tapılaraq, onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

## Vətəndaş müraciətlərinə diqqətlə yanaşılır

2016-cı ilin 9 ayı ərzində vergi orqanlarına 67.255 müraciət daxil olub ki bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9% azdır. Onlardan 96,3%-i ərizə, 3,5%-i şikayət, 0,2%-i təklifdir. Müraciətlərin 47,1%-i müxtəlif arayışların alınması, 23,0%-i kameral vergi yoxlamaları, 7,5%-i vergi borcları, 2,1%-i vergidən yayınma və dividendlərin verilməsi, 1,9%-i səyyar vergi yoxlamaları, 1,4%-i vergi qanunvericiliyinin tətbiqi, 1,4%-i ƏDV, 0,9%-i nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 0,8%-i qəbulla bağlı, 0,5%-i vergi cinayətləri, 0,5%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,4%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,2%-i korrupsiya hüquqpozmaları, 0,2%-i operativ vergi nəzarət tədbirləri barədə, 11,7%-i isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, 73,3%-i müsbət həll olunub.

9 ay ərzində vergi orqanlarına daxil olmuş şikayətlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,5% azalıb. Vergi orqanları tərəfindən ümumilikdə 3128 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə əsasən, vergilər naziri tərəfindən fevral ayının 25-də Oğuz, aprel ayının 29-da Neftçala, may ayının 20-də Yardımlı, iyun ayının 17-də Qusar, sentyabr ayının 23-də isə Füzuli rayonlarında səyyar qəbullar keçirilib, ümumilikdə 152 vətəndaş qəbul edilib.

## «Tax free» istifadəçiləri üçün yeni internet saytı

Ölkəyə xarici turistlərin marağının artırılması, turizm sektorunda sürətli inkişafın davamlılığının təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədilə dövlət başçısının 12 iyul 2016-cı il tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib və həmin fərmanın 4-cü bəndi ilə Vergilər Nazirliyinə «Tax free» sisteminin tətbiqinə başlanması ilə bağlı müvafiq tapşırıqlar verilib.

Fərmanda qeyd olunan tapşırıqların icrasının təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin müvafiq əmri ilə «Tax free» sisteminin bütün zəruri məlumatlarını özündə əks etdirən və domen adı «www.taxfree.az» olan internet saytı yaradılıb. www.taxfree.az saytına keçid Vergilər Nazirliyinin www.taxes.gov.az və www.e-taxes.gov.az internet saytlarında və sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilib.

Azərbaycanda «Tax free» sistemi haqqında bütün zəruri məlumatları özündə əks etdirən www.taxfree.az internet səhifəsi Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Bu resurs vasitəsilə istifadəçilər ilk öncə Azərbaycan Respublikası haqqında, o cümlədən ölkəyə gəlmək istəyən əcnəbi vətəndaşlar onlara gərəkli olan bütün məlumatlarla (məsələn, elektron turist vizaları barədə) tanış olmaq imkanı əldə edə bilərlər.

Səhifədə «Tax free» sisteminin Azərbaycandakı özəllikləri, bu sistemi tənzimləyən qanunvericilik aktları, normativ sənədlər barədə hər üç dildə ətraflı məlumat almaq mümkündür. İstifadəçi rahatlığını təmin etmək üçün saytda alıcı və satıcılara aid xüsusi bölmələr yaradılıb. Sistemdən yararlanmaq istəyən alıcılar ƏDV-nin qaytarılması şamil olunmayan mallar, «Tax free» stikeri olan mağazalarda malların satışının rəsmiləşdirilməsi, ƏDV-nin geri qaytarılması, habelə «Tax free» sisteminə qoşulmuş ticarət obyektləri barədə məlumatlar ala bilərlər. «Tax free» sistemini öz ticarət obyektlərində tətbiq edən satıcılar isə bu sistemə qoşulmaq üçün zəruri olan tələblər, qeydiyyat və qeydiyyatın ləğvolunma prosesi, öz mağazalarında malların satışının rəsmiləşdirilməsi, habelə Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalındakı «Tax free» bölməsindən istifadə təlimatı ilə tanış olmaq imkanı əldə edirlər.

Səhifədə, həmçinin, ölkə üzrə «Tax free» sisteminə qoşulmuş bütün ticarət obyektləri barədə ətraflı məlumatlar da (obyektin adı, yerləşmə ünvanı) yerləşdirilib. ƏDV-nin qaytarılması, o cümlədən ölkə ərazisindəki hava limanlarında «Tax free» məntəqələri barədə məlumatlar isə «TAX REFUND» bölməsində yer alır.

Bundan başqa, səhifədə əks-əlaqə yaratmaq imkanları da təqdim olunur ki, bunlar Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195-1), Vergi ödəyicilərinə xidmət mərkəzləri barədə məlumatlar və nazirliyin rəsmi səhifəsindəki «Sual-cavab» bölməsi vasitəsilə yaradılmış imkanları özündə cəmləşdirir. Alıcıların rahatlığını təmin etmək üçün daha bir imkan - «Tax free» kalkulyatoru da hazırlanaraq istifadəyə verilib.

«Taxfree.az» səhifəsindən başqa, istifadəçilər Azərbaycanda «Tax free» sistemi barədə lazımi məlumatları həm «Facebook», həm də «Twitter» sosial şəbəkələrində ya radılmış rəsmi səhifələrdən də ala bilərlər



# Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər

**Oktyabrın 7-də Vergilər Nazirliyinin Tədris Mərkəzində dövlət orqanları, ali təhsil və elmi-tədqiqat müəssisələri, qeyri-hökumət təşkilatları və sahibkarların ictimai birliklərinin nümayəndələrinin, müstəqil ekspertlərin iştirakı ilə «Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər» mövzusunda «dəyirmi masa» keçirilib.**



Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müşaviri Ələkbər Məmmədov bildirib ki, «dəyirmi masa»nın keçirilməsində əsas məqsəd kadr hazırlığı sahəsində təcrübə mübadiləsinin artırılması, yeni tendensiyalar və insan resurslarının inkişafı strategiyalarına ümumi yanaşmanın müəyyən edilməsi, bu sahədə tətbiq olunan texnologiyalar və onların təkmilləşdirilməsi yolları barədə müzakirələr aparmaqdır. Tədbir çərçivəsində kadr hazırlığı sahəsində qarşıya çıxan problemlər, nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi, Vergilər Nazirliyinin kadr hazırlığı ilə bağlı fəaliyyətinin əsas istiqamətləri və təlim prosesindəki nailiyyətləri haqqında geniş müzakirələrin aparılması nəzərdə tutulub.

Qeyd olunub ki, ölkəmizdə aparılan islahatların əsas məqsədlərindən biri idarəetmədə insan amilinin rolunun artırılmasıdır: «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatına» keçid və insan kapitalının inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib. Dövlət başçısının cari il avqustun 4-də imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamda vergi orqanlarında kadr hazırlığının gücləndirilməsi qarşıya məqsəd qoyulub. Vergilər Nazirliyi savadlı vergi əməkdaşlarının və məlumatlı vergi ödəyicilərinin yetişdirilməsində maraqlıdır. Buna görə də bu istiqamətdə bir sıra tədbirlər, layihələr həyata keçirilir. Yeni islahatlar çərçivəsində Vergilər Nazirliyi insan resurslarının hazırlığının artırılması, yüksək vergi əxlaqı və vergi mədəniyyətinin formalaşdırılması nəzərdə tutulub ki, bu tədbirlərin icrası qeyd olunan hədəflərə çatmağa imkan yaradacaqdır».

Tədbirdə iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, ölkənin elm, təhsil və biznes strukturlarının nümayəndələrinin bir araya gələrək kadr hazırlığı ilə birgə müzakirələr aparması təqdirəlayiqdir. Dövlət siyasətinin prioritet istiqamətlərindən birinin ölkədə beynəlxalq standartlara cavab verən, sivil vergi mədəniyyəti üzərində qurulmuş vergi sisteminin formalaşdırılmasından ibarət olduğunu deyən millət vəkili vergi inzibatçılığı və vergi mədəniyyətinin təkmilləşdirilməsi sahəsində görülən işlərə toxunub: «Vergi mədəniyyəti nə qədər yüksək səviyyədə olarsa, ölkənin maliyyə imkanları da bir o qədər inkişaf etmiş və stabil xarakter daşıyacaqdır. Son illərdə vergi inzibatçılığının təkmilləşdirilməsi dövlət büdcəsində vergi daxilolmalarının artmasında əhəmiyyətli rol oynayıb».

Z.Səmədzadə qeyd edib ki, vergi oqranlarında kadr hazırlığı həmişə diqqət mərkəzində olub və vergi sisteminin təkmilləşdirilməsinin əsas hərəkətverici qüvvəsi kimi qəbul edilib: «Vergilər Nazirliyinin Tədris Mərkəzinin işi buna bariz nümunədir. Lakin yeni dövr vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, kadr hazırlığına daha çox önəm verilməsi və digər tələbləri meydana gətirib. Bu baxımdan, nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi kadr hazırlığının artırılmasında mühüm rol oynaya bilər».

BDU-nun hüquq fakültəsinin dekanı Əmir Əliyev isə çıxışında bildirib ki, dövlət büdcəsinin gəlirlərinin təmin olunmasında xüsusi rol oynayan vergi sistemində kadr hazırlığı mühüm əhəmiyyət daşıyır: «Təmsil etdiyim təhsil ocağının hüquq fakültəsində vergi hüququ ayrıca fənn kimi tədris edilir. Bu gün vergi sahəsinin hüquqi baxımdan dərindən öyrənilməsinə ehtiyac var. Buna görə də bu sahədə kadr hazırlığı yalnız bakalavr səviyyəsində olmamalıdır, Vergilər Nazirliyi ilə Bakı Dövlət Universiteti arasında kadr hazırlığına dair saziş imzalanmalıdır. Bu, kadrların hərtərəfli yetişdirilməsinə və qanunvericiliyin formalaşdırılmasına böyük töhfə verə bilər.

Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi Sakit Yaqubov vergi sistemində kadr hazırlığının təkmilləşdirilməsinə ciddi ehtiyac olduğunu qeyd edib.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin şöbə rəisi Azər Şirinov isə bildirib ki, nazirlik uşaqların, yeniyetmə və gənclərin vergi sahəsində biliklərinin artırılmasına xüsusi önəm verir: «Gənc nəslin, təhsil müəssisələrinin şagird və tələbələrinin vergilər haqqında bilik və anlayışlarının artırılması, onlarda vergi mədəniyyətinin formalaşdırılması və bu sahəyə aid dərs vəsaitlərinin tədrisini səmərəli şəkildə həyata keçirmək məqsədilə ümumtəhsil məktəblərində vergilərə dair 54 metodiki kabinet təşkil edilib. Bakı şəhərində fəaliyyət göstərən 4 və 18 saylı peşə liseylərində müasir avadanlıqlar və vergilərə aid əyani vasitələrlə təchiz olunmuş «Vergi tədris otaqları» istifadəyə verilib. Verginin tədrisi ilə əlaqədar müxtəlif yaş qrupları üzrə dərs vəsaitləri hazırlanaraq nəşr olunub. Hər il orta məktəb şagirdləri və tələbələr arasında bilik yarışları və olimpiadalar keçirilir. 2002-ci ildən Vergilər Nazirliyinin təşəbbüsü ilə hər il «Vergilər uşaqların gözü ilə» adlı rəsm və inşa müsabiqəsi təşkil olunur». A.Şirinov 2012-ci ildə yaradılmış «Vergi dostları» qrupunun «Facebook» sosial şəbəkəsində populyarlıq qazandığını, nazirliyin internet saytında vergilərə aid geniş məlumatların yerləşdirildiyini, cari ilin ötən dövrü ərzində 3.446.389 istifadəçinin səhifəyə daxil olduğunu, «Onlayn bələdçi» xidmətinə edilən 16.468 müraciətin qısa müddətdə cavablandırıldığını diqqətə çatdırıb. Bildirib ki, cari ilin ötən dövrü ərzində xidmət strukturlarında qəbul edilmiş vergi ödəyicilərinin sayı 359.958 nəfər, göstərilmiş xidmətlərin sayı isə 570.733 olub. Dövr ərzində ödəyicilərə 49.532 sayda «ASAN imza» sertifikatı verilib. Ümumilikdə, proses başlayandan indiyədək 240.129 sertifikat təqdim olunub.

Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi Çingiz İsmayılov bildirib ki, vergi qanunvericiliyi iqtisadi proseslərə adekvat qaydada daim dəyişdiyi üçün buna uyğun olaraq, maarifləndirmə işi də təkmilləşdirilməli və inkişaf etdirilməlidir: «Təlim və insan resursları sahələrində təcrübə mübadiləsi aparılmalı, yeni tendensiyalar və təlim strategiyalarına ümumi yanaşmalar müəyyənləşdirilməli, eləcə də bu sahələrdə tətbiq olunan metod və texnologiyalar və onların təkmilləşdirilməsi yolları araşdırılmalıdır. Bu baxımdan, təmsil etdiyim Akademiya ilə Vergilər Nazirliyinin kadr hazırlığı ilə bağlı birgə kurslar və konfranslar təşkil etməsi məqsədəmüvafiq olardı».

Sonra BDU-nun hüquq fakültəsinin professoru Kamil Səlimov və psixologiya kafedrasının müəllimi Azər Mustafayev kadr potensialının təkmilləşdirilməsi istiqamətində əlavə işlərin görülməsinə dair təkliflərlə çıxış ediblər. Respublika Prokurorluğunun Elm-Tədris Mərkəzinin müəllimi Rafiq Quliyev isə Baş Prokurorluğun təşəbbüsü ilə hər il vergi sahəsində çalışan tədqiqatçı və müstəntiqlər üçün kurslar təşkil olunduğunu, təmsil etdiyi Mərkəzin kriminologiya-metodologiya şöbəsində gənc müstəntiqlər arasında sorğuların keçirildiyini bildirib. Qeyd edib ki, bu tədbirlər onların hüquqi biliklərinin artırılmasında və savadlı gənc kadrların işə qəbul olunmasında mühüm əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov müəssisədə kadr hazırlığı və insan resurslarının vəziyyətindən bəhs edərək bildirib ki, indiyədək 6710 nəfər vergi orqanı əməkdaşı qısamüddətli təlimlərə, 3246 nəfər isə ixtisasartırma kurslarına cəlb olunub. Son 10 ildə test vasitəsilə vergi orqanlarına 1200-dən çox şəxs qəbul olunub ki, bu da ümumilikdə əməkdaşların 52%-ni təşkil edir: « 2016-cı ildən etibarən vergi əməkdaşlarının sertifikasiyası prosesinə başlanılıb. 1600 əməkdaşın 516 nəfəri artıq sertifikasiya imtahanlarına cəlb olunub. Bu ilin ötən dövründə 99 nəfər stajlı əməkdaş təlimdən keçib, 35 qısamüddətli təlimdə 1075 nəfər iştirak edib».

Kadr hazırlığı ilə bağlı məsələlərə toxunan Ə.Həsənov əsasən regionlarda bu problemin mövcudluğunu, ixtisaslı kadrların, xüsusilə vergi hüququna malik əməkdaşların sayının az olduğunu deyib. Bu baxımdan, Tədris Mərkəzində onların ixtisaslaşdırılması zamanı ciddi problemlər yarandığı üçün təlim prosesinə kənardan mütəxəssislər dəvət edilir və onların köməyi ilə iştirakçılara konfliktlərin, stressin idarə olunması, komanda qurmaq bacarığı kimi psixoloji keyfiyyətlər aşılanır.

«Dəyirmi masa»nın ikinci hissəsində çıxış edən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov istehlakçı hüquqlarının qorunması, istehlakçıların maarifləndirilməsi, Vergilər Nazirliyi ilə əməkdaşlıqdan bəhs edib. «ASAN xidmət» in nümayəndəsi Anar Həsənov xidmət əməkdaşlarının təlim-tədris prosesindən, «Sabah» qrupunun nümayəndəsi Aida Quliyeva Təhsil Nazirliyi ilə birgə təlimtədris fəaliyyətindən, vergi təliminin təşkilindən danışıblar. Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndəsi Mehman Mehmanov və «Qadın Sahibkarlar» İctimai Birliyinin sədri Zemfira Ağayeva isə vergi mədəniyyətinin yüksəldilməsi sahəsində görülən işlər barədə məlumat veriblər.

Tədbirdə çıxış edən digər natiqlər - AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri Tanrıverdi Paşayev, «Azərbaycan» Universitetinin müəllimi Tofiq Hümbətov, Dövlət qulluğu üzrə Komissiyanın nümayəndəsi Fuad Mayılov, «Xəzər» Universitetinin müəllimi Fuad Rəsulov, «ASAN xidmət»in nümayəndəsi Cahangir Hacıyev, «Gənc mühasiblər» Birliyinin nümayəndəsi Solmaz Əliyeva, Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının nümayəndəsi Hümbət Hüseynov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzinin aparıcı məsləhətçisi Bahadur Kərimov, Turizm və Menecment Universitetinin kafedra müdiri Vüqar Nəzərov, müstəqil ekspert Fəxriyyə Səmədova vergi sahəsinin müxtəlif aspektlərindən bəhs ediblər. Bildirilib ki, dərslərin keçilməsində vahid bir proqram olmadığı üçün müxtəlif təhsil ocaqlarında fərqli proqramlar mövcuddur. Qanunvericiliyə edilən dəyişikliklərdə bu məsələlərin nəzərə alınması tövsiyə olunub.

Vergilər Nazirliyinin İnsan resurslarının inkişafı idarəsinin təhsil şöbəsinin əməkdaşı Nərmin Mirzəyeva bildirib ki, vergi orqanlarında əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi 2005-ci ildən həyata keçirilir. Bu strategiya, həmçinin, əməkdaşların fərdi stimullaşdırılması ilə də əlaqəlidir.

**Fəxriyyə İKRAMQIZI**

## Təcrübə mübadiləsi aparılıb

Malayziyanın Malakka şəhərində İslam Ölkələri Vergi Orqanları Assosiasiyasının 13-cü illik texniki konfransı keçirilmişdir. Konfransda 21 ölkədən 107 nümayəndə, eyni zamanda CATA, IBFD, ITC, NTA, Malayziyanın yerli dövlət agentliklərindən və institutlarından nümayəndələr iştirak etmişlər.

20 plenar sessiyadan ibarət olan konfransın ilk günü «Vergi administrasiyasında iri həcmli məlumatların təhlili» mövzusunda müzakirələr aparılmışdır. Mövzu ilə bağlı Malayziya, Banqladeş, İndoneziya, İran və İraq vergi administrasiyalarının nümayəndələri öz təcrübələrini əks etdirən təqdimatlarla çıxış etmişlər.

Konfransın ikinci günü «Vergi islahatları zamanı kommunikasiya strategiyaları» mövzusuna həsr olunmuş plenar iclasda vergi islahatları zamanı siyasi, iqtisadi, infrastruktur və vergi administrasiyalarının hazırlıq faktorlarının vacibliyi vurğulanmışdır. İştirakçılar mövzu ilə bağlı öz ölkələrində həyata keçirilən təcrübələrini təqdim etmişlər.

Konfransda Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin Vergi potensialının dəyərləndirilməsi idarəsinin Nağdsız əməliyyatların təhlili şöbəsinin rəisi Telman Məmmədov da iştirak etmişdir.

## Koordinasiya Şurasının növbəti iclası

Qırğız Respublikasının Çolpon-Ata (İssık-Kul) şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin vergi (maliyyə) təhqiqatı orqanları rəhbərlərinin Koordinasiya Şurasının 18-ci iclası keçirilmişdir. İclasda Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan respublikalarının, Rusiya Federasiyasının və MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişlər.

İclasda yalançı sahibkarlıq, vergidən yayınma və qaçaqmalçılıq ilə mübarizə, eləcə də maliyyə cinayətkarlığına qarşı əməkdaşlıq sahəsində ölkələrin qanunvericiliklərinin və təcrübələrinin xüsusiyyətləri barədə məsələlərə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir. Bundan əlavə, Koordinasiya Şurasının 17-ci iclasının qərarlarının üzv ölkələr tərəfindən yerinə yetirilməsi və Şuranın fəaliyyəti haqqında hesabatlar, iqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə hər bir üzv ölkənin fəaliyyəti barədə çıxışlar dinlənilmişdir. Daha sonra prosedur məsələləri müzakirəyə çıxarılmış və iclasın yekun protokolu imzalanmışdır.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəis müavini Mahir Hümbətov, Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsinin rəisi Eldar Babazadə təmsil etmişlər.

## E-ticarətdə pul vəsaitlərinin hərəkətinin izlənilməsi

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən «E-ticarət fəaliyyəti ilə bağlı pul vəsaitlərinin hərəkətinin izlənilməsi» mövzusunda Latviya Respublikasının paytaxtı Riqa şəhərində seminar keçirilmişdir. Tədbirə Albaniya, Avstriya, Azərbaycan, Belçika, Birləşmiş Krallıq, Bolqarıstan, Çexiya, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Hollandiya, İrlandiya, İspaniya, İsveç, İtaliya, Latviya, Litva, Macarıstan, Monteneqro, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Serbiya, Slovakiya, Sloveniya, Xorvatiya və Yunanıstan vergi orqanlarının nümayəndələri qatılmışlar.

Seminarda mövzu ilə bağlı üzv ölkələrin təcrübəsi müzakirə edilmiş, bu sahədə görülən işlər üzrə təqdimatlar hazırlanmışdır.

Tədbirdə Azərbaycanın Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Namiq Dərgahov iştirak etmişdir.

## «ASAN xidmət indeksi» üzrə qiymətləndirmə mexanizmi

Oktyabrın 3-də «ADA» Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və bu ali məktəb tərəfindən hazırlanan dövlət xidmətlərinin «ASAN xidmət indeksi» üzrə qiymətləndirmə mexanizminin təqdimatı olub.

Tədbirdə çıxış edən»ADA» Universitetinin rektoru Hafiz Paşayev rəhbərlik etdiyi ali təhsil müəssisəsi ilə agentlik arasında sıx əlaqələrin olduğunu bildirib. Diqqətə çatdırılıb ki, «Elektron hökumət» sahəsində ölkəmizdə görülən işlər sürətlə genişlənir və «ASAN» xidmət mərkəzləri bu istiqamətdə öz töhfəsini verməkdədir. «ASAN xidmət indeksi» üzrə qiymətləndirmə mexanizminin formalaşdırılması böyük nailiyyətdir və təqdirəlayiq haldır: «Belə bir layihənin universitetimizdə təqdim edilməsi təsadüfi deyil. Gələcəkdə bu mexanizmin uğur qazanmasında «ADA» Universitetinin də rolu qeyd olunacaq».

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov layihənin əhəmiyyətindən, bu istiqamətdə görülən işlərdən danışıb. Qeyd edilib ki, bu mexanizm vasitəsilə dövlət xidmətlərini həyata keçirən şəxslərin peşəkarlıq səviyyəsinin ölçülməsi və inkişafı, dövlət xidmətlərinin göstərilməsində şəffaflığın təminatı, bu sahədə nəzarət və şikayət mexanizmlərinin təkmilləşdirilməsi, bu cür xidmətlərin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi təmin ediləcək. Hazırda 118 dövlət orqanı tərəfindən göstərilən 594 dövlət xidməti haqqında bütün məlumatlar reyestrdə əksini tapıb. Bu layihə ilə dövlət xidmətlərinin qiymətləndirilməsinə cari ilin noyabrından başlanacaq. Gələn ilin ortalarında yeddi parametr üzrə aparılacaq qiymətləndirmənin nəticələri ictimaiyyətə açıqlanacaq. Diqqətə çatdırılıb ki, yalnız mərkəzi və yerli icra hakimiyyəti orqanları deyil, dövlət mülkiyyətində, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatlarının xidmətləri də dövlət xidmətlərinin Elektron Reyestrində əks olunacaq, eləcə də vətəndaşlar vahid mənbədən bütün dövlət xidmətlərinə çıxış əldə edəcəklər.

Sonra agentliyin hüquqi təminat şöbəsinin müdiri İlhamə Qədimova «ASAN xidmət indeksi» üzrə qiymətləndirmə mexanizminin təqdimatını edib.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Yol vergisi

***Benzinin, dizel yanacağının və maye qazın pərakəndə satışı zamanı ƏDV hesablanarkən yol vergisi nəzərə alınmalıdırmı?***

Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 14 yanvar 2015-ci il tarixli 2 nömrəli Qərarının 2.4-cü bəndinə əsasən, neft məhsullarının satışını Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yol vergisini topdansatış tariflərinə əlavə edib təchizat tariflərini çıxmaqla, təchizat təşkilatları isə topdansatış tariflərinə əlavə etməklə həyata keçirirlər. Həmin Qərarın 2.6-cı bəndində göstərilir ki, pərakəndə satış tariflərinə aksiz, ƏDV, təchizat tarifləri, eləcə də qanunvericiliyə uyğun olaraq yol vergisi tətbiq edilən neft məhsulları üzrə yol vergisi daxil olunmuşdur.

Vergi Məcəlləsinin 161.1-ci maddəsinə görə, vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (yol vergisi istisna edilməklə digər vergilər, rüsumlar və ya başqa yığımlar da daxil olmaqla) əsasında müəyyən edilir.

Vergi Məcəlləsinin 211.1.2-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır.

**Qeyd olunanlara əsasən:**

Yanacaq məhsullarının pərakəndə qaydada təqdim edilməsindən ƏDV tutulan əməliyyatın dəyəri müəyyən edilərkən yol vergisi istisna təşkil edir. Bu zaman yanacağın pərakəndə satış qiymətindən ödənilmiş yol vergisi çıxıldıqdan sonra qalan məbləğdən verginin hesablanması ƏDV nəzərə alınmadan yerinə yetirilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16
və ya
s.musayeva@taxes.gov.az
elektron poçt ünvanına göndərə bilərsiniz

# Nümunəvi vergi ödəyiciləri

Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə bu günlərdə «Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi qaydaları» təsdiq edilib. Qaydalar «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamının müvafiq bəndinin icrası məqsədilə hazırlanıb. Məqsəd vergi öhdəliklərini tam və vaxtında yerinə yetirən, vergi qanunvericiliyinə əməl edən nümunəvi vergi ödəyicilərinin seçilib fərqləndirilməsi və fəaliyyətlərinin təşviq edilməsindən ibarətdir.

***Nümunəvi vergi ödəyicisinin meyarları***

Nümunəvi vergi ödəyicisi olmaq üçün sahibkarın fəaliyyəti nazirlik tərəfindən müəyyən edilmiş meyarlara cavab verməlidir. Beş ildən artıq fasiləsiz (fəaliyyətin dayandırıldığı hallar istisna olmaqla) sahibkarlıq fəaliyyəti ilə məşğul olan, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun aparan və bu barədə vergi orqanına qanunvericiliyə müvafiq qaydada məlumatlar təqdim edən, əsas fəaliyyətindən fərqli və ya riskli əməliyyatlar aparmayan, həmin əməliyyatlar nəticəsində hesablana biləcək vergilər barədə müvafiq rəyin alınması üçün vergi orqanına yazılı müraciət edən və «Vergi partnyorluğu Sazişi» imzalayan şəxslər bu meyarlara cavab vermiş hesab olunurlar.

Bundan əlavə, daxili audit və risklərin idarəedilməsi sistemlərinə malik olan və yaxud müstəqil peşəkar auditor və məsləhətçilərin xidmətindən istifadə edən, saxta sənədlər təqdim etməyən, əmtəəsiz əməliyyatlar aparmayan, həmçinin fəaliyyət sahəsində cinayət təqibi olmayan şəxslər də nümunəvi vergi ödəyicisinin meyarlarına aiddir. Son 3 il ərzində təqdim edilmiş vergi hesabatlarında göstərilən vergi məbləğini nəzərdə tutulmuş müddətdə ödəyən, təqvim ilini mənfəətlə başa vuran, səyyar və ya kameral vergi yoxlamaları nəticəsində hesablanmış vergi məbləği vergi hesabatlarında bəyan edilmiş məbləğin 2 faizindən çox olmayan sahibkarlar da bu qrupa daxildir.

Nümunəvi vergi ödəyicisi adı qazanmaq üçün sahibkara qarşı maliyyə sanksiyası və inzibati cərimə tətbiq edilməməlidir, vergi risklərinin dərhal aradan qaldırılması təmin olunmalıdır.

> Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi elektron səhifələrində nümunəvi vergi ödəyicilərinin siyahısı yerləşdiriləcək

***Etimadı doğruldanlar üçün əlavə imtiyazlar***

Beynəlxalq təcrübəyə əsasən, nümunəvi vergi ödəyiciləri vergiləri tam şəkildə və vaxtında ödəməklə yanaşı, fəallıq nümayiş etdirərək cəmiyyətin vergi ödəmək vərdişlərinin möhkəmlənməsində ictimai funksiya daşıyıcıları hesab olunurlar. Cəmiyyətdəki nüfuzu nəzərə alınaraq, onlar dövlət səviyyəsində müxtəlif tədbir və yığıncaqlara dəvət edilir, mükafatlandırılır. Bu, digər sahibkarların da nümunəvi vergi ödəyicisi olmaq arzusunun gerçəkləşməsində başqa təşviqat vasitələrindən heç də az rol oynamır.

Nümunəvi vergi ödəyicilərinə xidmətin təşkili üçün bir sıra güzəştlər tətbiq ediləcək. İlk növbədə, onlar Vergi ödəyicilərinə xidmət mərkəzlərində xüsusi pəncərələrdən istifadə və ya növbə gözləmədən müraciət imkanına malik olacaqlar. Vergilər Nazirliyinin Çağrı Mərkəzində yalnız nümunəvi vergi ödəyiciləri üçün nəzərdə tutulmuş xüsusi ayrılmış xətt təşkil ediləcək. Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi elektron səhifələrində nümunəvi vergi ödəyicilərinin siyahısı yerləşdiriləcək. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin müzakirəsi zamanı bu şəxslərin iştirakı təmin ediləcək. Nümunəvi vergi ödəyicilərinə ünvanlı səyyar xidmətlər də göstəriləcək.

Bundan əlavə, hər il sentyabrın 15-dək Vergilər Nazirliyinin vergi risklərinin təhlili və nəzarəti funksiyalarını həyata keçirən struktur vahidi tərəfindən nümunəvi vergi ödəyicilərinin siyahısı müəyyən olunaraq vergi ödəyicilərinə xidmət funksiyalarını həyata keçirən struktur vahidinə təqdim ediləcək. Həmin struktur tərəfindən sentyabrın 25-dək siyahı üzrə nümunəvi vergi ödəyicilərinə sertifikatların təqdim edilməsi təmin olunacaq. Sertifikatın müddəti isə 3 il müəyyənləşdirilib. Məsələ ondadır ki, nazirliyin müəyyən etdiyi qayda və tələbləri pozan nümunəvi vergi ödəyicilərinin siyahıdan çıxarılması riski də var. Fəaliyyətində nöqsanlar olduğu halda ona xəbərdarlıq ediləcək və yaranmış uyğunsuzluğu aradan qaldırmaq üçün 10 gün vaxt veriləcək. Bu müddətdə vergi ödəyicisi səhvləri aradan qaldırmadığı təqdirdə, onun sertifikatı ləğv olunacaq və bununla da yenidən nümunəvi vergi ödəyicisi adı qazanması xeyli çətinləşəcək.

***İntizamsız vergi ödəyiciləri də yaddan çıxmayacaq...***

Vergilər Nazirliyi nümunəvi vergi ödəyicilərinə güzəşt və imtiyazlar verməklə bərabər, öz vergi öhdəliklərini yerinə yetirməyən və qarşıya qoyulan tələblərə məsuliyyətsiz yanaşan ödəyicilərin intizamının artırılması üçün müxtəlif vasitələr tətbiq etməyi də planlaşdırır. İntizamsız vergi ödəyicilərinin «yola gətirilməsi» məqsədilə ictimai tədbirlərin, maarifləndirmə, təşviqat xarakterli görüşlərin mütəmadi təşkili, vergidən yayınmanın cinayət məsuliyyəti yaratma halları və digər məsələlər geniş şəkildə onlara izah olunacaq. Bu cür vasitələrdən nəticə çıxarmayan və vergiləri ödəməkdən yayınmağı vərdişə çevirən ödəyicilərə qarşı isə sərt addımlar atılacaq. Həmin şəxsin və ya şirkət rəhbərinin adları «qara siyahı»ya salınaraq ictimaiyyətə təqdim olunacaq. Qeyd edək ki, bir neçə ildir ki, nazirliyin tətbiq etdiyi bu cür siyahılarda vergi borcunu ödəməkdən yayındıqları üçün barələrində cinayət işi açılan və istintaqı yekunlaşdırılaraq məhkəməyə göndərilən vergi ödəyicilərinin adları ictimaiyyətə açıqlanır.

**E. CƏFƏRLİ**

# Sadələşdirilmiş vergi ödəyiciləri üçün köməkçi vəsait

Vergilər Nazirliyi tərəfindən sadələşdirilmiş vergi ödəyiciləri üçün praktiki vəsait hazırlanıb. Nazirliyin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) «Aktual» bölməsində yerləşdirilən maarifləndirmə xarakterli vəsait sadələşdirilmiş verginin hesablanması və bəyannaməsinin tərtib edilərək vergi orqanına təqdim olunması üçün nəzəri məlumatların verilməsi ilə yanaşı, həm də bu məsələlərlə bağlı praktiki biliklər verir. İstifadəçilər vəsaitlə tanış olmaqla sadələşdirilmiş verginin ödəyicisi olmaq qaydaları, bu hüquqdan istifadə zamanı nə qədər vergi ödəyəcəyi, sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi dövrü, bəyannamənin necə tərtib edilməsi və digər zəruri məlumatlar əldə edə bilərlər.




Vəsaitdə qeyd edilir ki, əgər vətəndaş yalnız ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olursa və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manatdan artıqdırsa, seçimindən asılı olaraq sadələşdirilmiş vergi ödəyicisi ola bilər. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər də bu hüquqdan istifadə etmək hüququna malikdirlər. Eləcə də avtonəqliyyat vasitəsilə respublika ərazisində daşımalar həyata keçirən, idman-mərc oyunları fəaliyyəti ilə məşğul olan, mənzilini və ya qeyri-yaşayış obyektini satan şəxslər də sadələşdirilmiş vergi ödəyicisi hesab edilirlər.

Köməkçi vəsaitdə vergi ödəyicisinə nə qədər sadələşdirilmiş vergi ödəməli olduğu izahlı şəkildə qeyd edilib. Burada, həmçinin, sadələşdirilmiş vergi bəyannaməsi haqqında da geniş məlumatlar yer alıb. Qeyd edilib ki, bina tikintisi fəaliyyəti, avtonəqliyyat vasitəsi ilə respublika ərazisində daşımaları və idman-mərc oyunlarını həyata keçirən şəxslər istisna olmaqla, digər sadələşdirilmiş verginin ödəyiciləri hesablanmış vergini hər rübdən sonrakı ayın (yanvar, aprel, iyul və oktyabr aylarının) 20-dən gec olmayaraq «Sadələşdirilmiş verginin bəyannaməsi» ilə bəyan etməli və həmin tarixdən gec olmayaraq bəyan edilmiş vergini dövlət büdcəsinə ödəməlidirlər. Yaşayış və qeyri-yaşayış sahələri təqdim edildiyi zaman vergi alğı-satqı müqaviləsini təsdiq edən notariuslar tərəfindən hesablanaraq tutulmalı, 1 bank günü ərzində dövlət büdcəsinə ödənilməli və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi» vergi orqanına təqdim edilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımaları həyata keçirən vergi ödəyicisi kimi vergi orqanına bəyannamə verilmir və vergi ödəyicisi təqvim ayının sonunadək növbəti ay, rüb, yarımil və ya il üzrə hər bir nəqliyyat vasitəsi üçün rəsmi icazə sənədi olan «Fərqlənmə nişanı» alarkən vergi dövlət büdcəsinə ödənilir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan və sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edən şəxs tikinti-quraşdırma işlərinin başlandığı rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına «Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergi bəyannaməsi»ni təqdim etməli, həmin bəyannamə vergi orqanına təqdim edildikdən sonra hesablanmış vergi bərabər hissələrlə 10 rüb ərzində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödənilməlidir. Bu halda, həmin şəxs hüquqi şəxs kimi ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxs kimi isə ƏDV-nin və gəlir vergisinin ödəyicisi hesab edilmir.

İdman-mərc oyunlarının operatorları və satıcıları hesablanmış vergini hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq «Sadələşdirilmiş verginin bəyannaməsi» ilə vergi orqanına bəyan etməli və həmin tarixdən gec olmayaraq bəyan edilmiş vergi dövlət büdcəsinə ödənilməlidir.

Bununla yanaşı, köməkçi vəsaitdə 1 və 3 nömrəli Əlavəsiz «Sadələşdirilmiş vergi bəyannaməsi»nin onlayn qaydada tərtib edilərək göndərilməsi, heç bir dövriyyə və işçi olmadığı halda «Sadələşdirilmiş vergi bəyannaməsi»nin onlayn qaydada tərtib edilərək göndərilməsi, 3 nömrəli Əlavə ilə birlikdə «Sadələşdirilmiş vergi bəyannaməsi»nin onlayn qaydada tərtib edilərək göndərilməsinə aid video-təlimatlar, «Sadələşdirilmiş vergi bəyannaməsi» və onun 1 və 3 nömrəli Əlavələrinin doldurulması Qaydaları, həmçinin «Sadələşdirilmiş vergi bəyannaməsi»nin vergi orqanına onlayn təqdim edilməsi» elektron xidməti üzrə inzibati reqlament də yer alıb.

**AYTƏN**

# Azərbaycan MDB ölkələri arasında birincidir

Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2016-2017» hesabatını dərc edib. Hesabatın hazırlanmasında statistik məlumatlardan və dünyanın 138 ölkəsində fəaliyyət göstərən iş adamları arasında keçirilmiş sorğunun nəticələrindən istifadə olunub.

Hesabatda xüsusi vurğulanıb ki, qlobal iqtisadi artımın ləng getməsi, maliyyə bazarlarındakı qeyri-sabitlik, yüksək borc səviyyəsinin davam etməsi bütün ölkələrin iqtisadiyyatına təsir edir. Dərinləşən böhran dünya üzrə ÜDM artımının 2015-ci ildə 2,5 faizə düşməsinə səbəb olub. Forum ekspertlərinin rəyinə görə, 2016-cı ildə bu rəqəmin 1,4 faiz səviyyəsinə enməsi gözlənilir. Gələcək artım perspektivlərinə isə baş verən uzunmüddətli tendensiyalar mane olur.

Hesabatda Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik səviyyəsinə əsasən tədqiqatın apardığı 138 ölkə arasında 37-ci yerdə göstərilib. Azərbaycan rəqabətqabiliyyətlilik indeksi üzrə dünya sıralamasında öz mövqeyini ötən illə müqayisədə yaxşılaşdırıb, MDB ölkələri arasında isə birinci yerdə qərarlaşıb.

Qeyd edək ki, Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyin müəyyən olunması üçün 12 göstəricidən istifadə edir:

- keyfiyyət;
- infrastruktur;
- makroiqtisadi sabitlik;
- sağlamlıq və ilkin təhsil;
- ali təhsil və peşə hazırlığı;
- əmtəə və xidmətlər bazarının səmərəliliyi;
- əmək bazarının səmərəliliyi;
- maliyyə bazarının inkişafı;
- texnoloji səviyyə;
- daxili bazarın həcmi;
- şirkətlərin rəqabət qabiliyyəti;
- innovasiya potensialı.

İqtisadçı alim Vilayət Vəliyevin sözlərinə görə, Azərbaycanın reytinqdə mövqeyinin yaxşılaşmasında bir sıra amillərin, o cümlədən son bir ildə biznes mühitinin təkmilləşdirilməsi və sahibkarların hüquq və mənafelərinin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin mühüm rolu var. Dövlət başçısı tərəfindən imzalanmış «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərman ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması sahəsində yeni imkanlar açıb. 2015-ci ilin sonundan başlayaraq biznes fəaliyyətinin asanlaşmasına xidmət edən layihələrin həyata keçirilməsi, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» və «Lisenziyalar və icazələr haqqında» qanunların qəbulundan sonra yoxlamaların dayandırılması, lisenziyaların sayının azaldılması, e-lisenziya sisteminin yaradılması, «bir pəncərə» prinsipi, ümumilikdə sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlərin tətbiqi və digər amillər hesabatda Azərbaycanın mövqeyinin yaxşılaşmasına səbəb olub.

Hazırda respublikamızda biznes mühitinin və rəqabətqabiliyyətliliyin yaxşılaşdırılması məqsədilə tədbirlər davam etdirilir. İxrac qaydalarının sadələşdirilməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin tamamilə elektronlaşdırılması, qeydiyyat prosedurlarının təkmilləşdirilməsi, idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və digər sahələrdə yeniliklərin tətbiqi nəzərdə tutulur. Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsində başlıca istiqamətlərdən biri rəqabət qabiliyyətinin gücləndirilməsidir. Bu sahənin əsas prioritetləri kimi iqtisadiyyatın bütün sahələrində səmərəliliyin və rəqabətliliyin, eləcə də birbaşa xarici investisiyaların artırılması nəzərdə tutulur.

**Qlobal rəqabətlilik hesabatında yer alan ilk «onluq» ölkələri**

| | |
|---|---|
| 1 | İsveçrə |
| 2 | Sinqapur |
| 3 | ABŞ |
| 4 | Niderland |
| 5 | Almaniya |
| 6 | İsveç |
| 7 | Böyük Britaniya |
| 8 | Yaponiya |
| 9 | Çin |
| 10 | Finlandiya |

Dünya İqtisadi Forumu ilə sıx əməkdaşlıq edən Azərbaycan Marketinq Cəmiyyətinin layihə rəhbəri, iqtisadçı ekspert Nigar Nəcəfzadənin sözlərinə görə, hesabat respublikamızdakı inkişaf proseslərinin beynəlxalq səviyyədə müsbət qiymətləndirilməsini təsdiqləyir. Marketinq Cəmiyyəti Dünya İqtisadi Forumunun sifarişi əsasında Azərbaycandakı iqtisadi vəziyyətin dəyərləndirilməsi istiqamətində sorğular keçirir. Bu məqsədlə respublikanın 100-dək tanınmış iqtisadçı ekspertinin rəyi də əsas götürülür.

**ELBRUS**

# Elektron xidmətlər üzrə inzibati reqlamentlər yeni redaksiyada...

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin Kollegiyası tərəfindən vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə bir sıra normativ hüquqi aktlarla yanaşı, fiziki və hüquqi şəxslərin fəaliyyətinin onlayn dayandırılması və onlayn bərpası elektron xidmətləri üzrə inzibati reqlamentlər yeni redaksiyada təsdiq edilib.

***Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması***

Bu xidmət fiziki şəxs olan vergi ödəyicilərinin Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı və ya nazirliyin Çağrı Mərkəzi vasitəsilə fəaliyyətinin müvəqqəti dayandırılmasını əhatə edir. İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət tam, Çağrı Mərkəzində isə qismən avtomatlaşdırılmışdır.

Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirilən xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı vaxtından asılı olur. Çağrı Mərkəzi vasitəsilə elektron xidmətin icra müddəti tələb olunan məlumatların istifadəçi tərəfindən təqdim edilməsindən, icraçının həmin məlumatları sistemə daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imzadan istifadə etməklə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, icra müddəti 5-7 dəqiqədir. Xidmət interaktiv və ödənişsizdir.

***İnternet Vergi İdarəsi Portalı vasitəsilə xidmətdən istifadə qaydaları***

Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış (VÖEN) və elektron sənəd mübadiləsi haqqında müqavilə əsasında istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza əldə etmiş fiziki şəxslər bu xidmətdən yararlana bilərlər. Xidmətdən istifadə etmək üçün istifadəçi İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və E-VHF» bölməsinə daxil olur, «Yeni müraciət» düyməsini sıxdıqdan sonra «Kimə» siyahısından «Vergilər Nazirliyi», «Müraciətin növü» siyahısından «Ərizə», «Sənədin növü» siyahısından «Fiziki şəxsin fəaliyyətinin dayandırılması»nı seçir və «Qəbul» düyməsini sıxır. İstifadəçi açılan ekranda «Fiziki şəxsin fəaliyyətinin dayandırılması ərizəsi»nin elektron forması üzrə tələb olunan məlumatları daxil edir. Daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir, istifadəçi məlumatların doğruluğuna əmin olduqda «Qəbul» düyməsini sıxır, əks halda, imtina etmək üçün «İmtina» düyməsi sıxılır. İstifadəçi ərizənin doğruluğunu təsdiqlədikdən sonra ekrana fəaliyyətin dayandırılması haqqında «Bildiriş» çıxır. İstifadəçi «Onlayn kargüzarlıq və E-VHF» bölməsinin «Göndərdiklərim» qovluğundan ərizə və bildirişlə, habelə əməliyyat tarixçəsi ilə də tanış ola bilər.

> İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət tam, Çağrı Mərkəzində isə qismən avtomatlaşdırılmışdır

Elektron xidmət portal vasitəsilə həyata keçirildikdə fəaliyyətin dayandırılması barədə daha əvvəl təqdim olunmuş ərizə üzrə məlumatlar Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) daxil edilənədək fiziki şəxs tərəfindən yenidən fəaliyyətin dayandırılması ərizəsi göndərildikdə və fəaliyyəti dayandırılmış fiziki şəxs tərəfindən həmin dövr daxil olmaqla fəaliyyətin dayandırılması barədə yeni ərizə təqdim edildikdə, sorğunun yerinə yetirilməsindən imtina edilir.

***Çağrı Mərkəzi vasitəsilə xidmətin göstərilməsi***

Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış, «Elektron imza və elektron sənəd haqqında» Qanunun müddəalarına əsasən Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) tərəfindən verilmiş gücləndirilmiş elektron imza əldə etmiş fiziki şəxslər bu xidmətin istifadəçiləridir.

Xidmətdən istifadə üçün şəxs Çağrı Mərkəzinə (195-1) zəng etməklə müraciət edir, mobil telefon nömrəsini təqdim edir, kimliyinin müəyyənləşdirilməsi məqsədilə mobil telefon nömrəsinə gəlmiş SMS-lə tanış olduqdan sonra gücləndirilmiş elektron imza PIN2 kodunu daxil edir. Təqdim edilən məlumatlar əsasında «Fiziki şəxsin fəaliyyətinin dayandırılması» ərizəsi doldurulur və istifadəçinin mobil telefon nömrəsinə ərizədə qeyd olunan məlumatlar barədə SMS göndərilir. İstifadəçi SMS-lə tanış olduqdan sonra yoxlama kodunu təsdiqləyir və gücləndirilmiş elektron imza PIN2 kodunu daxil etməklə ərizəni imzalayır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin mobil telefon nömrəsinə fəaliyyətin dayandırılması barədə SMS və «Onlayn kargüzarlıq və E-VHF» bölməsindəki elektron qutusuna ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi göndərilir. İstifadəçi həmin bölmənin «Göndərdiklərim» qovluğundan ərizə və ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi ilə tanış ola bilər.

Qeyd olunan xidmətdən imtina halları isə müxtəlifdir. Fəaliyyətin dayandırılması barədə daha əvvəl təqdim olunmuş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilənədək fiziki şəxs tərəfindən yenidən fəaliyyətin dayandırılması ərizəsinin təqdim olunması üçün müraciət edildikdə, fəaliyyəti dayandırılmış fiziki şəxs tərəfindən həmin dövr daxil olmaqla fəaliyyətin dayandırılması barədə yeni ərizənin təqdim edilməsi üçün müraciət edildikdə, müraciət edən şəxs ASXM tərəfindən verilmiş gücləndirilmiş elektron imzaya sahib olmadıqda, mobil telefon nömrəsi səhv bildirildikdə və ya həmin nömrə ilə bağlı nasazlıq olduqda, ərizədə qeyd edilməli məlumatlar dəqiq bildirilmədikdə və müraciət iş vaxtı edilmədikdə bu xidmətin göstərilməsindən imtina edilir.

Hər iki sorğunun qəbulundan imtina üçün əsaslar olmadıqda fiziki şəxsin fəaliyyəti dayandırılır və ona bu barədə məlumat verilir.

**Aytən NƏBİYEVA**

## Vergi üzrə peşəkar təlim və inkişaf forumu

Estoniyanın paytaxtı Tallinn şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) Vergi üzrə peşəkar təlim və inkişaf Forumu keçirilmişdir. Tədbirdə quruma üzv olan 46 dövlətin vergi administrasiyalarının, Avropa Komissiyasının və IOTA Katibliyinin nümayəndələri iştirak etmişlər.

Forumun əsas məqsədi üzv ölkələrin vergi administrasiyaları arasında təlim və inkişaf sahəsində ən yaxşı təcrübələri müəyyənləşdirmək məqsədilə bilik və məlumatların bölüşdürülməsi olmuşdur.

Tədbir iştirakçıları müxtəlif ölkələr tərəfindən təcrübədən keçirilmiş təlim meyilləri və istiqamətləri ilə tanış olmaq imkanı əldə etmişlər. Forumun sessiyalarında internet vasitəsilə seminar və ya konfransların təşkili, onlayn təlim üsullarına müraciət və digər təcrübələr nəzərdən keçirilmişdir.

Forum çərçivəsində müzakirə olunan vergi orqanlarında demoqrafik dəyişikliklər və bunun insan resurslarının inkişafına təsiri, həmçinin vergi administrasiyalarının liderlik strategiyası, bu sahədə müxtəlif yanaşma və metodların tətbiqi iştirakçılar üçün faydalı olmuşdur. Forumda Azərbaycanı vergilər nazirinin tədris və insan resurslarının inkişafı sahələri üzrə müşaviri Ələkbər Məmmədov və nazirliyin Tədris Mərkəzinin rəisi Əli Həsənov təmsil etmişlər.

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Əmək qüvvəsinin rəsmiləşdirilməsi məqsədilə gəlir vergisinin azaldılması müsbət nəticə verər



Eldar İsgəndərov,
*«İnterkomp» şirkətinin biznesin inkişafı üzrə direktoru*

Azərbaycan Prezidentinin vergi sahəsində aparılacaq islahatların istiqamətləri ilə bağlı bu yaxınlarda imzaladığı sərəncamda bir sıra mühüm məsələlər nəzərdə tutulub. Hesab edirəm ki, islahatlar çərçivəsində görülən işlər vergi ödəyicilərinin mənafeyinə xidmət edəcək. Müasir standartlara uyğun olaraq vergi ödəyicilərinə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin Çağrı Mərkəzində beynəlxalq təcrübədə istifadə olunan «Outbound Call Centre» funksiyasının tətbiqi mərkəzin sistemli və intizamlı fəaliyyətini təmin edəcək.

Beynəlxalq təcrübə göstərir ki, vergi ödəyicisindən tutulan vergilərin çəkisi onun məcmu gəlirinin 30-40 %-dən çox olduğu halda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkəyə qoyulan investisiyaların həcmi azalır. Bununla əlaqədar hesab edirəm ki, dövlətin vergi siyasəti vergi yükünün optimal səviyyəsinə nail olmağa yönəldilməlidir. Digər bir məqamı qeyd etmək istərdim, nümunəvi vergi ödəyicilərinə xüsusi yanaşma praktikası bir çox ölkələrdə geniş tətbiq olunur və vergi ödəyicilərinin stimullaşdırılması üçün mükəmməl bir alətdir. Bu sahədə vergi inzibatçılığının sadələşdirilməsi sahibkarlığın inkişafı ilə yanaşı, vergi orqanlarının payına düşən iş yükünün də azaldılmasına səbəb olur.

> Aparılan islahatlar ƏDV mənbələrinin genişlənməsinə və büdcəyə vergi ödənişlərinin artmasına səbəb olacaq

...nə hər ay 21 manat vergi ödəməklə vəzifəsini yekunlaşdırır. Bu zaman işçi fiziki şəxs kimi fəaliyyət göstərdiyinə görə, faktiki olaraq işəgötürənin qarşısında hüquqları məhdudlaşır, rəsmi məzuniyyəti və digər sosial hüquqları olmur və s. Ən əsası isə odur ki, bu halda dövlət büdcəsi əhəmiyyətli dərəcədə gəlirləri itirir. Məhz bu səbəbdən də sahibkarlığın inkişafı naminə əmək qüvvəsinin işə qəbulunun rəsmiləşdirilməsi üçün gəlir vergisi-

azaldılmasına səbəb olur. Bir sıra xarici ölkələrdə nümunəvi vergi ödəyicilərinin dövlət tərəfindən mükafatlandırılması təcrübəsinin Azərbaycanda da tətbiq olunması sevindirici haldır. Bu barədə məlumatların ictimaiyyətə geniş təqdim olunması və onlar haqqında məlumatların nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsi sahibkarlara işgüzar partnyor seçimi zamanı çox kömək edəcək. Sahibkar və şirkətlər üçün əsas meyar biznesdə öz mövqeyini möhkəm saxlamaq üçün intizamlı vergi ödəyicisi kateqoriyasına düşmək olacaq. Əminəm ki, şirkətlər öz adlarını bu siyahıda görmək üçün ciddi səy göstərəcəklər. Bu, eyni zamanda, vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın minimuma endirilməsi, yoxlamalara sərf olunan resursların digər önəmli istiqamətlərə yönəldilməsi üçün şərait yaradacaq.

Hesab edirəm ki, islahatlar üzrə təkliflər hazırlanan zaman Azərbaycanda mövcud olan gəlir vergisinə yenidən baxılmalıdır. Müşahidələr göstərir ki, kiçik müəssisə və şirkətlər çox halda əməkdaşların işə qəbulu ilə bağlı vergi və büdcəyə ödənişləri azaltmaq üçün müxtəlif yollar axtarırlar. Sahibkar işçini xidməti müqavilə əsasında işə qəbul edərək, onun yerinin azaldılması müsbət nəticə verərdi.

Vergi Məcəlləsinə əsasən, 2500 manatdan artıq əməkhaqqından 25% gəlir vergisi tutulur. Manatın məzənnəsinin aşağı düşməsi və sahibkarlığın inkişafına yönəldilən siyasətlə əlaqədar faiz dərəcəsinin azaldılması və yuxarı vergi dərəcəsinin tətbiq olunduğu həddin qaldırılması məqsədəmüvafiqdir. Doğrudur, bu, gəlir vergiləri üzrə büdcəyə hazırkı ödənişlərin azalmasına səbəb ola bilər, amma islahatlar sayəsində yeni müəssisələrin açılması, xüsusən də xarici sərmayə və xidmət müqaviləsi əsasında çalışan fiziki şəxslərin işəgötürən tərəfindən rəsmi formada işə qəbul olunması reallaşacaq, nəticədə çox yaxın müddətdə büdcəyə əlavə vergilərin daxil olması mümkünləşəcək. Bu, ölkəmizdə özəl sektorunun sərmayələr üçün əlverişli məkana çevrilməsi, sərmayə mühitinin şəffaflaşması baxımından da əhəmiyyət kəsb edir.

ƏDV ilə bağlı aparılan islahatlara gəlincə, bu vergi növünün bəzi sahələr üzrə azaldılması vergi yığımlarının həcminə ciddi təsir etməyəcək, əksinə, bu siyasət bazar münasibətlərində yeni imkanların yaranmasına və müəyyən dövrdən sonra ƏDV mənbələrinin genişlənməsinə, büdcəyə vergi ödənişlərinin artmasına səbəb olacaq.

Digər mühüm məsələlər - vergi inzibatçılığı prosedurlarının yüngülləşdirilməsi və vergi yükünün azaldılması, «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmadan əvvəl vergi orqanları ilə razılaşdırılması» qaydasının müəyyən edilməsi, kameral vergi yoxlamalarının 30 gün müddətində həyata keçirilməsi, Azərbaycan ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq saziş layihələrində inzibatçılıq qaydalarının sadələşdirilməsi ölkədə biznes mühitinin daha da yaxşılaşmasına səbəb olacaq.

## Müasir informasiya texnologiyalarının tətbiqi vergi yoxlamalarının əhatəliliyini təmin edər



Ramin Məmmədov,
*tikinti sahəsi üzrə müstəqil ekspert*

Azərbaycanda aparılan sənayeləşmə siyasətinin əsas məqsədlərindən biri milli istehsalın və ixracın diversifikasiyası-nın sürətləndirilməsi istiqamətlərində sistemli və ardıcıl tədbirlərin həyata keçirilməsi, rəqabətqabiliyyətli və ixrac yönümlü innovativ əsaslı texnologiya və malların istehsalından ibarətdir. Sənayenin davamlı inkişafının təmin edilməsi, sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması, daxili bazarın qorunmasının stimullaşdırılması, sənaye fəaliyyəti üçün müəyyən edilmiş dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi və sənaye kompleksinin inkişafı məqsədilə qanunvericilik bazasında yeni islahatlar aparılması zəruridir.

Azərbaycanda sənaye məhsullarının istehsalı ilə məşğul olan bəzi fəaliyyət sahələrində vergi güzəştlərinin tətbiq olunması zəruridir. Bir çox ölkələrdə tikinti materialları sektoru iqtisadiyyatın qeyri-neft sənayesinin əsas strateji sahələrindən biri hesab olunduğundan, bu sahədə fərqli vergi tətbiq edilir. Türkiyədə ən çox vergi ödəyən sahibkarlar arasında sement istehsalçıları mühüm yer tutur. Bu ölkədə sementin idxalı üçün lazım olan xammalın vergiyə cəlb olunması zamanı digər idxal malları ilə nisbətdə bir qədər aşağı ƏDV tətbiq olunur. Azərbaycanda da bu təcrübənin tətbiqi milli istehsalın stimullaşdırılması, istehsalın səmərəli təşkili və həcminin artması baxımından mühüm əhəmiyyət daşıya bilər. İxdal vəsaitinin xarici ölkələrə axınının qarşısının alınması, yerli istehsal müəssisələrinin dövlət büdcəsinə ödəmələri, məşğulluğa dəstək verilməsi, o cümlədən həyata keçirilən bir sıra sosial layihələr nəzərə alsaq, daxili istehsalı stimullaşdırmaq vacib məsələlərdən biri olmalıdır.

Məlum olduğu kimi, ölkəmizdə ixracatçıları həvəsləndirmək məqsədilə bir sıra təşviqedici qərarlar qəbul edilib, investisiya təşviqi sənədi almış sahibkarlara müxtəlif güzəştlər verilir. İxracla məşğul olan sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların daha da sadələşdirilməsi ilə bağlı əlavə tədbirlər görülməkdədir. İxracın daha da stimullaşdırılması üçün vergi-gömrük tariflərinə yenidən baxılması və müddətli vergi dərəcələrinin tətbiq olunması məqsədəmüvafiqdir. Bu, ixrac sektorunda rəqabət mühitinin yaxşılaşmasına, biznesə əlavə dəstək olardı. Vergi inzibatçılığı sahəsində informasiya texnologiyalarının təşviqinə daim dəstək verilməsi, bu istiqamətdə innovasiya yönümlü intellektual texnologiyaların tətbiqi də əsas vəzifələrdəndir. Müasir informasiya texnologiyalarının geniş tətbiqi vergi yoxlamalarının əhatəliliyini təmin edə bilər. Yoxlamaların asanlaşması hər iki tərəf üçün əhəmiyyət kəsb edər, şəffaflığın möhkəmlənməsinə səbəb ola bilər.

> İxracın daha da stimullaşdırılması üçün vergi-gömrük tariflərinə yenidən baxılması və müddətli vergi dərəcələrinin tətbiq olunması zəruridir

Ölkəmizdə rəqabətli işgüzar mühitin yaradılması işinin iştirakçısı olan vergi orqanları qarşısında vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, yaranmış problemlərin aradan qaldırılmasına diqqətlə yanaşmaq, biznesə və vətəndaşlara vergi məsələlərində və innovasiyalarda yardım etmək vəzifəsi durur. Bu baxımdan, mütərəqqi beynəlxalq təcrübənin öyrənilərək ölkəmizə gətirilməsi Vergilər Nazirliyinin prioritet fəaliyyət istiqamətlərindən olmalıdır.

Hesab edirəm ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi olduqca zəruridir.

***Hazırladı:*** **Elbrus CƏFƏRLİ**

# Kənd təsərrüfatına dövlət dəstəyi gücləndirilir

Azərbaycanda kənd təsərrüfatı yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi baxımından keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməkdədir. Xüsusilə qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından kənd təsərrüfatında məhsuldarlığın maksimuma qaldırılması mühüm əhəmiyyət kəsb edir. Fermerlərin istehsal etdikləri məhsulları xarici bazarlara çıxara bilmələri üçün hökumət onlara bütün lazımi köməklikləri göstərir, bu da özünü əldə edilən nəticələrdə aydın göstərir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, bu il Azərbaycandan xarici ölkələrə göndərilən kənd təsərrüfatı məhsullarının ümumi həcmi dəyər ifadəsində 28,8 faiz artıb, bütün növ kənd təsərrüfatı məhsullarının ixracında artım qeydə alınıb. Fermerlər və kənd təsərrüfatı müəssisələri xaricə 218 milyon dollar dəyərində meyvə-tərəvəz, texniki bitkilər (tütün və pambıq) və başqa emalsız məhsullar satıblar. Ötən illə müqayisədə kənd təsərrüfatı məhsullarının ixracından ölkəyə 48 milyon dollar çox valyuta daxil olub.

> «İndi dövlət kənd təsərrüfatının inkişafına həm daha güclü dəstək verməlidir, həm də bu sahəyə daha da böyük miqyasda müdaxilə etməlidir. O mənada müdaxilə etməlidir ki, biz fermerlərə kömək göstərək, onların problemlərini həll edək və ölkəmizdə ənənəvi olan, ancaq əfsuslar ki, tənəzzülə uğrayan sahələri bərpa edək və inkişaf etdirək».
>
> İlham Əliyev,
> *Azərbaycan Respublikasının Prezidenti*

2016-cı ildə ölkədə tərəvəz istehsalı bir qədər azalsa da, meyvə istehsalı 0,8 faiz artıb. Bununla belə, hesablamalar göstərir ki, sahələrdən yığılan tərəvəzin 13,5 faizi (133,4 min ton), bağlardan dərilən meyvə və giləmeyvənin təxminən 16 faizi (56,5 min ton) xarici bazarlarda satılıb. Əldə edilən məhsulun əsas hissəsi isə Rusiyaya göndərilib. Tərəvəz ixracı (133,4 min ton) kütlə ifadəsi ilə 29,7 faiz, dəyər ifadəsi ilə isə 37 faiz (102 milyon ABŞ dolları) artıb. Bu ilin 8 ayında əvvəlki ilə nisbətən meyvə ixracı 13,5 min ton çox olub. İxracdan əldə edilən gəlirin göndərilən məhsulun artım tempindən geri qalmasına səbəb isə xaricə satılan fındığın qiymətinin 9 min dollar/tondan 6 min 100 dollar/tona düşməsi ilə bağlıdır.

Bu il Azərbaycanda 2,1 min ton tütün yarpağı istehsal edilib. İxraca gedən məhsul isə əsasən ötənilki yığımdan olub. 2015-ci ildə bir ton tütün xammalı xarici bazarlarda 3 min 775 dollara satılırdısa, bu il həmin qiymət 181 dollar bahalaşıb. Ölkəmizin pambıq ixracatçıları da qiymətlərdən şikayətçi deyillər. Əvvəlki illə müqayisədə bu il Azərbaycan istehsalı olan bir ton pambıq mahlıcının satış qiyməti 12,6 faiz artaraq 1620 dollara yüksəlib.

**Rəşad SADIQOV**

# Korporativ idarəetmə təkmilləşdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın əvvəlində imzaladığı «Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncama əsasən, milli iqtisadiyyatın xüsusiyyətləri və beynəlxalq təcrübələr nəzərə alınmaqla, nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin korporativ idarəetmə standartları müəyyən ediləcək.

İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qalib Bayramov bildirmişdir ki, dünyanın müxtəlif ölkələrində dövlət və özəl şirkətlərdə korporativ idarəetmə məsələləri fərqli şəkildə tənzimlənir. Bu sahədə ayrıca qanunvericilik aktı (məsələn, «Korporativ İdarəetmə Məcəlləsi») qəbul edən ölkə də var, sadəcə standartlar, təlimatlar əsasında tənzimləmə həyata keçirən də. Bütün hallarda korporativ idarəetmə könüllü idarəetmə sistemidir, lakin beynəlxalq təcrübə göstərir ki, xüsusən, səhmdar cəmiyyətlərinə münasibətdə belə bir yazılmamış qayda var: ya korporativ idarəetməni tətbiq etməli, ya da onu niyə tətbiq etmədiyini əsaslandırmalısan: «Azərbaycan qanunvericiliyində (xüsusilə Mülki Məcəllədə, səhmdar cəmiyyətləri ilə bağlı qanunvericilik aktlarında, «Mühasibat uçotu haqqında» və «Banklar haqqında» Azərbaycan Respublikası qanunlarında və s.) korporativ idarəetmənin çərçivələri müəyyən olunub. Bundan əlavə, İqtisadiyyat Nazirliyi də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının korporativ İdarəetmə prinsipləri əsasında tətbiqi könüllü olan standartlar hazırlayıb. Bütün bunlara baxmayaraq, Azərbaycanda korporativ idarəetmə arzuolunan səviyyədə deyil. Ölkəmizdə korporativ idarəetmənin tətbiqinin sürətləndirilməsi baxımından ölkə başçısının sərəncamı bu sahədə daha səmərəli tənzimlənməni həyata keçirə biləcək institusional orqanın - Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması ilə başlanan islahatın davamı kimi qiymətləndirilməlidir».

Ekspertin fikrincə, bu sərəncamdan sonra paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə korporativ idarəetmənin tətbiqi məcburi olacaq ki, bu da alqışlanmalı addımdır: «Bu, ölkədəki sahibkarlıq mühitinin bazar qaydaları əsasında idarə olunmasına, əlverişli sahibkarlıq mühitinin formalaşdırılmasına təkan verməklə yanaşı, həmin səhmdar cəmiyyətlərinin nüfuzunun yüksəlməsinə, investisiyaların cəlbi sahəsində vəziyyətin yaxşılaşmasına şərait yaradacaq. Bu sahədə beynəlxalq təcrübənin tətbiqi - bu tip cəmiyyətlərin fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi («Performance Based Remuneration System») əsasında hüquqi şəxslərin idarəetmə orqanlarının üzvlərinə bonus ödənişinin verilməsi isə həvəsləndirici bir addım və daha səmərəli idarəetməni təşviq edən alət kimi təqdirəlayiqdir».

Q.Bayramov qeyd etmişdir ki, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə korporativ idarəetmənin tətbiqi ictimai vəsaitlərin xərclənməsi sahəsində nəzarətin gücləndirilməsi, şəffaflığın və hesabatlılığın yüksəldilməsi, səhmdarların hüquqlarının qorunması, investisiyaların cəlbi, effektiv idarəetmənin formalaşdırılması, risklərin azaldılması, maraqlı tərəflərin münaqişəsinin önləndirilməsi və beynəlxalq mühasibat standartlarının tətbiqi baxımından böyük əhəmiyyətə malikdir: «Hesab edirəm ki, bu sərəncamda Prezident tərəfindən qoyulan vəzifələrin mərhələli icrası paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə Müşahidə Şurası, İdarə Heyəti, payçıların hüquqları, onların korporativ idarəetmədə rolu, beynəlxalq mühasibat uçotu standartları əsasında hazırlanmış milli mühasibat uçotu prinsiplərinə əsaslanan maliyyə hesabatı, şəffaflıq və kommersiya sirri sayılmayan ictimai əhəmiyyətli açıq informasiyaların açıqlanması sahəsində mövcud nöqsanların aradan qaldırılmasına imkan verəcək».

**Fəxriyyə İKRAMQIZI**

# «Made in Azerbaijan»ı təşviq edən sahibkarlar üçün güzəştlər

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, qeyri-neft məhsullarının ixracatçılarına dəstək tədbirlərindən istifadə hüququna dair qaydalar təsdiq olunub.

Qaydalara əsasən, ixrac olunan qeyri-neft məhsullarının səmərəliliyinin artırılması, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi üçün müxtəlif stimullaşdırıcı tədbirlərin görülməsi nəzərdə tutulur. Yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə əldə etdiyi sertifikat və patentin alınmasına, ixrac layihələrinin hazırlanmasına çəkilən xərclər dövlət büdcəsi hesabına ödəniləcək.

İqtisadiyyat Nazirliyi yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov bildirib ki, ixracatçıların xarici ölkələrdə məhsula sertifikat və patent almasına və əmtəə nişanlarının qeydiyyatına görə onlara ödənilən məbləğ həmin işlərlə bağlı çəkilən xərclərin 50%-i həcmində olacaq. Beynəlxalq sərgi və ya yarmarkalarda «Made in Azerbaijan» brendini təşviq edən ixracatçıların xərclərinin 30%-i dövlət tərəfindən qarşılanacaq. İl ərzində keçirilən tədqiqat-inkişaf proqramlarının sayı 10-dan artıq ola bilməz. Dəstək məbləği nağdsız qaydada manatla ödəniləcək, xarici valyuta ilə çəkilmiş xərclər isə Mərkəzi Bank tərəfindən müəyyən olunmuş valyuta məzənnəsinə uyğun hesablanacaq. Dəstək tədbirlərindən yararlanacaq ixracatçıları müəyyən etmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən müsabiqə təşkil olunacaq.

Fond rəhbərinin sözlərinə görə, ixrac məhsullarının çeşidi və coğrafiyasının şaxələndirilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi ilə yanaşı, ixracyönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin verilməsi məqsədilə müvafiq işlər aparılır. Stimullaşdırma ilə əlaqədar digər tədbirlərə əlverişli maliyyə şərtləri, logistika, infrastrukturun yaxşılaşdırılması, xarici bazarlara çıxış üçün yardım daxildir. Bununla yanaşı, milli ixracın stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycan məhsullarının yeni bazarlara çıxış imkanlarını genişləndirmək üçün Qazaxıstanın Aktau şəhərində Logistika mərkəzi sahibkarların istifadəsinə verilib, növbəti belə mərkəz Rusiyanın Yekaterinburq şəhərində inşa olunacaq. Bununla yanaşı, ixrac-idxal əməliyyatları zamanı elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi və digər istiqamətlərdə işlər aparılır. İxracı stimullaşdırmaq və ixrac qabiliyyətli məhsul istehsal etmək üçün özəl sektorda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunmuş yeni sənaye və emal müəssisələrinin açılması vacibdir. Bu məqsədlə iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlbinə mane olan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi məqsədilə dövlət tərəfindən əlavə tədbirlər həyata keçiriləcək. Dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və terminalları vasitəsilə tranzit yüklərin daşınmasında tətbiq olunan «bir pəncərə» prinsipinin asanlaşdırılması da planlaşdırılır. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun «İxraca Hazır Ol» layihəsi çərçivəsində isə sahibkarların ixrac sahəsində maarifləndirilməsi, onların nəzəri və praktiki biliklərinin artırılması məqsədilə Avropada təcrübə keçmələri planlaşdırılır. Birgə layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə ixraca dair sertifikatlaşdırma, elektron ixrac üzrə təlimlərin təşkil olunması, bazar tədqiqatlarının aparılması, məlumat mübadiləsi və digər tədbirlər nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin oktyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

## vergi təqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | **2** |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | **16** |
| **17** | 18 | 19 | **20** | 21 | 22 | **23** |
| 24 / 31 | 25 | 26 | 27 | 28 | 29 | **30** |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

17 oktyabr - «(1)» və «(2)».

20 oktyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və Mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

**Vergilər Nazirliyi**

beynəlxalq panoram

# Emiqrasiyada vergi rejimləri mühüm rol oynayır

«BDO's Global Opportunities» qurumunun hesabatına əsasən, yaşamaq məqsədilə başqa ölkələrə köçmək arzusunda olan insanlar üçün vergi rejimləri, maliyyə amilləri, eləcə də həyat tərzi başlıca faktorlar sayılır. Ölkələrin əksəriyyəti əmlakın ötürülməsi zamanı ƏDV və digər dolayı vergilər, eləcə də gəlir və mənfəət vergisi kimi birbaşa vergilər tuturlar. Bir sıra ölkələrdə isə hədiyyələr və miraslar üçün vergilər nəzərdə tutulur, əmlakın xalis dəyəri üzrə illik vergi ödəmək tələb edilir. Məsələn, emiqrantların böyük maraq göstərdikləri Avstraliyada öz vergi rezidensiyasının sərhədlərini pozaraq ölkəni tərk edən vətəndaşlar vergiyə cəlb olunur.

«Köçmək istədiyiniz ölkənin vergi rejimi haqqında zəruri təsəvvürünüzün olması mühüm əhəmiyyət daşıyır, - «BDO's Global Opportunities» qurumunun rəhbərlərindən biri Riçard Monteqyu demişdir. - Seçdiyiniz ölkənin vergi rejiminin başa düşülməsi emiqrasiyanın başlıca amili olaraq qalmaqdadır».

Məsələn, Avstraliyada və Yeni Zelandiyada əmlakın xalis dəyərinə, mirasa və hədiyyələrə vergilər tətbiq olunmur, eləcə də gerb vergisi tutulmur. ABŞ-da isə vergi rejimi çox mürəkkəbdir: yerli yığımlardan başqa, ölkənin hər bir vətəndaşı üçün tətbiq edilən federal vergilər də mövcuddur. Sinqapurda ən aşağı dərəcə ilə gəlir vergisi tutulur, kapitaldan, xalis aktivlərdən, əmlakdan, mirasdan və hədiyyələrdən isə ümumiyyətlə vergi tutulmur.

# Rusiyada ərzaq məhsullarına «tax free» tətbiq olunacaq

Rusiya Federasiyası xarici vətəndaşlara ölkəni tərk edərkən qaytarılan ƏDV-yə düşən malların siyahısını genişləndirməyi planlaşdırır. Hökumətə ünvanlanmış yeni təklifə əsasən, əcnəbilərə ərzaq məhsulları üçün tutulan ƏDV də qaytarıla biləcək. «Kommersant» qəzetinin məlumatına görə, artıq bu barədə Sənaye və Ticarət Nazirliyi tərəfindən Maliyyə Nazirliyinə və hökumətin aparatına müraciət daxil olmuşdur.

Sənaye və Ticarət Nazirliyinin rəsmi məktublarında bildirilir ki, Rusiya Federasiyasında «tax free» təcrübəsinin 2017-ci ilin əvvəlindən tətbiq edilməsi nəzərdə tutulur. Əvvəlcə bu sistem yalnız Moskvanın bir neçə mağazasında, eləcə də Soçi və Sankt-Peterburq şəhərlərinin ticarət obyektlərində tətbiq olunacaq. 2018-ci ildən isə artıq Rusiyanın bütün ərazisində əcnəbilərin aldıqları ərzaq məhsullarından tutulan əlavə dəyər vergisinin qaytarılmasına başlanacaq. ƏDV-nin qaytarılacağı minimal məbləğ isə təxminən 10 min rubl (258 manat) təşkil edəcək.

# ABŞ vətəndaşlarının tibbi vergi güzəştləri barədə məlumatı azdır

ABŞ-ın Səhiyyə Nazirliyinin ictimaiyyət üçün açıqladığı hesabatda bildirilir ki, vergi ödəyicilərinin tibbi xidmətlərlə bağlı təyin edilmiş güzəştlər barədə kifayət qədər məlumatı yoxdur. Qurumun açıqladığı məlumatda qeyd edilir ki, 2,5 milyona yaxın vətəndaş hamı üçün əlçatan səhiyyə barədə qanuna əsasən, fərdi tibbi sığortanın tərtibi zamanı vergi güzəştlərindən istifadə etmək hüququna malikdir. Qanun aşağı və orta gəlirli vətəndaşlar üçün vergi kompensasiyasının ödənilməsini nəzərdə tutur və amerikalılara tibbi sığorta üzrə mükafatların ödənilməsinə yardım edir. Beləliklə, ABŞ vergi ödəyiciləri özləri üçün optimal olan variantı: ya illik vergi kompensasiyasını, ya da sığorta şirkətinə aylıq ödəniş formasında avtomatik şəkildə bərabər məbləğdə vəsaitin köçürülməsini seçə bilərlər. ABŞ-da yeni maliyyə imkanları barədə əhalinin məlumatlandırılması üçün ayrıca hökumət saytı da yaradılmışdır.

# Yunanıstan «vergi əfvi» tətbiq etməyi planlaşdırır



Hökumətin üzərində fəal iş apardığı yeni qanunvericilik layihəsində maraq doğuran məsələlərdən biri də gizli gəlirlərin leqallaşdırılmasıdır. Qanun layihəsinin oktyabr ayının sonuna qədər parlamentə təqdim olunacağı gözlənilir.

Maliyyə və Ədliyyə nazirlikləri gizli gəlirlərin qanunilәşdirilməsi üçün müəyyənləşdiriləcək vergi dərəcəsinin 60%-dək olmasını təklif edirlər. Bu məbləği ödəyəndən sonra vergi ödəyicisinə gizli gəlirlərə görə günahlarının bağışlanılması barədə əfv sənədi veriləcək və həmin sənədlə vergi ödəyicisinin üzərindən həm inzibati, həm də cinayət məsuliyyəti götürülmüş olacaq. Qanun qüvvəyə minəndən sonra vergi ödəyicilərinə vaxtında bəyan etmədikləri gəlirlərini açıqlamaq üçün iki ay vaxt veriləcək, həmin müddətdən sonra isə Maliyyə Nazirliyinin repressiya aparatı tam gücü ilə işə düşəcək.

Yunanıstanın Baş naziri Aleksis Siprasın sözlərinə görə, gəlirlərin leqallaşdırılması barədə qanun layihəsi hökumətin prioritet kimi yanaşdığı məsələlərdəndir, çünki bu, ölkədə nağdsız ödənişə keçidi sürətləndirməyə kömək edə bilər.

Vergi əfvi dünyanın bir çox ölkələrində geniş yayılmış təcrübədir. Məsələn, Hindistanda elan edilmiş dörd aylıq vergi əfvi müddəti yenicə başa çatmışdır. Bu tədbir sayəsində ölkə vətəndaşları 9,5 milyard dollardan artıq gizlədilmiş gəlirlərini və aktivlərini üzə çıxarmışlar. Əfvdən sonra dövlət büdcəsinə 4 milyard dollardan artıq vəsait daxil olmuşdur. Ölkənin maliyyə naziri Arun Caytlinin dediyinə görə, dörd ay ərzində 64 mindən çox vergi ödəyicisi öz gəlirlərini bəyan etmək üçün müvafiq orqanlara müraciət etmişdir. Kampaniya dövründə vergi orqanlarının əməkdaşları vergini gizlətməkdə şübhəli bilinən 700 min nəfərlə əlaqə saxlamış və onlara əfv fürsətindən istifadə etməyi məsləhət görmüşlər.

Ekspertlərin rəyinə görə, Yunanıstandakı vəziyyət bir çox cəhətdən Hindistanla səsləşir. Əhalinin say tənasübü nəzərə alınmaqla vergi əfvi sayəsində Yunanıstanda təxminən 2 milyon avro əlavə yığım həcminin olacağı gözlənilir.

# «Apple» korporasiyası offşor kapitalı üzrə ABŞ-da liderdir

«Fortune 500» siyahısı ilə bağlı yeni araşdırmanın nəticələrinə görə, şirkətlər vergi ödənilməsinin azaldılması məqsədilə offşor zonalarda 2,5 trilyon dollar vəsait yerləşdirmişlər. Həmin siyahıda ABŞ-ın «Apple» korporasiyası öndə gedir. Bu qurum 2009-cu ildə müxtəlif offşor zonalarda 215 milyard dollar vəsait yerləşdirməklə ABŞ-ın dövlət büdcəsinə 65 milyard dollardan artıq vəsait ödəməkdən yayınmışdır.

Müqayisə üçün bildirilir ki, «Apple» korporasiyası tərəfindən keçən il üç offşor zonaya köçürülmüş məbləğ Portuqaliya, Yunanıstan və Yeni Zelandiya kimi dövlətlərin ÜDM-indən artıq olmuşdur. Bu məbləğin köçürülməsi sayəsində korporasiyanın vergidən yayındırdığı vəsaitin həcmi isə Belarusun, Uruqvayın və Xorvatiyanın ÜDM-indən artıqdır.

Araşdırmanın nəticələrinə əsasən, offşorlardakı hesabların məbləğinə görə ikinci yeri «Pfizer» əczaçılıq şirkəti tutur. Bu şirkətin 181 offşor filialı və təxminən 191 milyard dollar kapitalı var. Üçüncü yerdə 5 offşor filialına və 124 milyard dollar həcmində kapitala malik «Microsoft» gəlir.

# Almaniyanın vergi orqanları xarici bankları məsuliyyətə cəlb edirlər

Almaniyanın dövlət ittihamçıları «vergi ödənilməməsi üçün təhrikə görə» 60 xarici bankda təhqiqat aparmağa başlamışlar. Təhqiqatın aparılması üçün etibarlı mənbə isə həmin bankların müştəriləridir. «Süddeutsche Zeitung» nəşrinin məlumatına əsasən, İsveçrə, Lixtenşteyn, Avstriya və Lüksemburq bankları iki ildən artıq müddətdə vergi xidmətinin şübhə hədəfində olmuşdur. Bu banklara qarşı aparılan təhqiqat Almaniya vətəndaşlarının diqqətini cəlb etmiş və onlar özlərinin xarici banklarda son altı ildə açdıqları hesabları barədə vergi orqanlarına könüllü bəyannamələr təqdim etmişlər.

Almaniyanın müvafiq orqanları artıq banklara dair on iş üzrə cərimə məbləğləri müəyyənləşdirmişdir. Ümumi məbləğ hələlik 120 milyon avro təşkil edir, ən böyük fərdi cərimə (37,1 milyon avro) isə İsveçrənin «Basler Kantonalbank»ının payına düşür.

## Xəbər lenti

**İsveçrə** Parlamentinin qəbul etdiyi islahat sənədinə əsasən, dövriyyəsi 102.421 ABŞ dollarından çox olan bütün xarici şirkətlərə bu ölkəyə aid müştərilərlə apardıqları əməliyyatlar üzrə əlavə dəyər vergisi tətbiq ediləcək. Hazırda qüvvədə olan qanuna əsasən, xarici şirkətlər üçün təyin olunan dövriyyə həddi təxminən 51.210 dollar təşkil edir.

**Honq-Konq**un maliyyə xidmətləri və xəzinə üzrə katibi bəyan etmişdir ki, vergi şəffaflığı sahəsində beynəlxalq standartlara əməl etməklə bağlı öhdəlikləri yerinə yetirmək əzmindədir.

**Böyük Britaniya**da sığorta mükafatı üçün vergilər 10%-dək artırılmışdır. Verginin artırılması müəyyən istisnalarla bu il oktyabrın 1-dən sonra əldə edilən sığorta mükafatlarına tətbiq ediləcək. Gələn ilin fevralından isə sığorta müqaviləsinin nə zaman bağlandığından asılı olmayaraq, bütün mükafatlara vergi tətbiq olunacaq.

**Ukrayna** Ali Radasının qəbul etdiyi qanun layihəsinə əsasən, ölkənin dini təşkilatları vergidən azad edilmişlər.

**ABŞ**-ın Ölkədaxili Gəlirlər Xidməti fırtına, daşqın və ya digər təbii fəlakətlərdən ziyan çəkən vergi ödəyicilərinə yardım və məsləhət təklif etmişdir.

**Cin**in Maliyyə Nazirliyi ilə Gürcüstanın İqtisadiyyat və İnkişaf Nazirliyi azad iqtisadi zona yaratmaq barədə ikitərəfli sazişə dair danışıqların uğurla başa çatdırılması üçün qarşılıqlı anlaşma memorandumu imzalamışlar.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Məşhur Azərbaycan aktrisası. «Qaynana» filminin baş qəhrəmanı Cənnət xala obrazının ifaçısı; 2.Sultan Süleyman Qanuninin böyük oğlunun adı; 3.İngiltərə kraliçasına bağışlanılmış Qarabağ atının adı; 4.Hollivud ulduzu, «Terminator» filminin baş qəhrəmanı, ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatorunun adı; 5.Rusiyada çay; 6.İttiham olunan şəxsin cinayət əməlində iştirakının olmadığını sübut edən anlayış, hüquqi termin; 7.Türkiyənin məşhur kino aktrisası. «Arım, balım pətəyim» filminin rejissorunun, ssenaristinin və Zeynəb obrazının ifaçısının adı; 13.Oyuncaq çeşidi, bir-biri ilə birləşə bilən müxtəlif rəng və formada uşaq konstruktor brendi; 15.Fransa bəstəkarı, impressionizm cərəyanının nümayəndəsi; 16.Tezalışan və qaranlıqda işıq verən kimyəvi element; 17.Osmanlı sultanı İldırım Bəyazid ilə Əmir Teymur arasında baş vermiş döyüş; 18.Ruhlar aləmi ilə canlı insanlar arasında əlaqə yaradan şəxs; 20.Hakim dindən ayrılmış icma, təriqət; 21.Yumru dərman dənələri.

**Soldan sağa:** 1.Qədim sikkə və medalları toplayıb tədqiq edən elm; 8.Rusiyada çay və şəhər; 9.Braziliyada bələdiyyə; 10.Alman maşınqayırma şirkəti. Məişət avadanlığı və istehlak mallarının istehsalçısı; 11.Məşhur rejissor Eldar Ryazanovun «İki nəfərlik vağzal» filmində Vera Nefyodova rolunu oynamış sovet-rus teatr və kino aktrisası, estrada müğənnisi, SSRİ xalq artisti; 12.Səthində müxtəlif bəzəkləri olan nazik biskvit növü; 14.Nizam, səliqə; 19.Kimyəvi element; 21.Fransız heykəltəraşı; 22.Qrafik məlumatın qəbulu və göndərilməsi üçün elektron rabitə cihazı; 23.Opera müğənnisi (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadiminin soyadı; 24.Çay mənsəbində çay vadisinin dəniz suları ilə basılmasından əmələ gələn, adətən, konusvari formaya malik körfəz; 25.Mühərriksiz uçan aparatlara əsaslanan idman növü.



*«Arım, balım, pətəyim» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Komizm; 2.Novella; 3.Erida; 4.Abinsk; 5.Satinet; 6.Epoxa; 7.Ellora; 13.Moll; 15.Mozalan; 16.Oktrua; 17.Venera; 18.Şlüter *(Andreas)*; 20.Bemit; 21.Dadli. **Soldan sağa:** 1.Konferansye; 8.Mavriki; 9.Troll; 10.Zolya *(Emil)*; 11.Sentavr; 12.Çalma; 14.Ştamp; 19. Kabalye *(Monserrat)*; 21.Dizel *(Rudolf)*; 22.Rumi *(Mövlana Cəlaləddin)*; 23.Teodolit; 24.Akt; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 11000

## idman

# Yunan-Roma güləşində yeni dəyişiklik - parter ləğv edilib



Bir müddət əvvəl Dünya Güləş Birliyi yunan-Roma güləşi qaydalarında bəzi dəyişikliklər edib. Bu dəyişiklərdən biri yeniyetmə və gənclər arasında keçirilən yarışlarda parter qaydasının ləğv olunması idi. Böyüklər yaş qrupunda isə bu dəyişikliyə Rio Olimpiadasından sonra yenidən baxılması qərarlaşdırılmışdı.

Dünya Güləş Birliyi artıq bu dəyişikliyi təsdiqləyib və ötən il yarım ərzində yeniyetmə və gənclər yaş qrupunda tətbiq edilən bu qayda böyüklər arasında keçirilən yarışlarda da tətbiq olunacaq. Yəni bundan sonra passiv güləşməyə görə parter tətbiq edilməyəcək. Belə ki, passiv güləşməyə görə ilk dəfə güləşçiyə şifahi xəbərdarlıq olunacaq və protokolda qeyd ediləcək. Eyni güləşçi yenə də passivlik nümayiş etdirərsə, ona rəsmi xəbərdarlıq veriləcək. Güləşçiyə üçüncü dəfə passivliyə görə xəbərdarlıq edilərsə, o zaman ikinci rəsmi xəbərdarlıq veriləcək və rəqibin hesabına 1 xal əlavə olunacaq. Bundan sonra baş verəcək hər ikinci xəbərdarlıq rəqibə 1 texniki xal verilməklə nəticələnəcək. Bütün bu hallarda - passivliyə görə edilən xəbərdarlıq və rəqibə xal verilməsi üçün görüş dayandırılmayacaq.

## Neymar 300-cü qolunu qeyd etdi

İspaniyanın «Barselona» klubunun və Braziliya yığma komandasının futbolçusu Neymar yubiley qoluna imza atıb. Karyerasında 300-cü qolunu vuran «sambaçı» dünya çempionatının seçmə mərhələsi çərçivəsində Boliviya ilə matçda beş qoldan birinin müəllifi olub. Braziliyalı forvard indiyədək «Barselona»da 95, «Santos»da 138, milli komandanın əsas heyətində 49, ölkənin 17, 20 və 23 yaşadək futbolçulardan ibarət millilərində isə 18 dəfə fərqlənib. O, əsas yığmadakı qol sayında millinin sabiq hücumçusu Zikonu üstələyib. 24 yaşlı Neymar hazırda bombardirliyə görə yalnız Pele (77 qol), Ronaldo (62) və Romarioyadan (55) geri qalır.



# Gənclər arasında velosiped idmanına marağın artırılması məqsədilə...

Azərbaycan Velosiped İdmanı Federasiyası və Nəsimi Rayon İcra Hakimiyyəti arasında əldə olunmuş razılığa əsasən, rayon ərazisində yerləşən orta və ali ixtisas təhsil müəssisələri arasında velosiped yarışlarına start verilib. Oktyabrın 6-da rayonun 5 orta məktəbinin 150-dək şagirdi arasında ilk yarış keçirilib.

Yarışdan əvvəl məktəblilər Respublika Velotreki ilə tanış olublar. Onlara dünyada və Azərbaycanda velosiped idmanının tarixi, velosiped idman növünün inkişafı üçün görülən işlər haqda məlumat verilib.

Yarışın yekununda fərqlənən məktəblərin komandaları final mərhələsinə vəsiqə qazanıblar. Qeyd edək ki, orta məktəb və ali təhsil müəssisələri arasında keçiriləcək yarışa ümumrayon finalı ilə yekun vurulacaq.



## «France Football» öz laureatını elan edəcək

Oktyabrın 25-də «France Football» jurnalı «Qızıl top» namizədlərini açıqlayacaq. Fransa nəşri sözügedən mükafat laureatları ilə bağlı 30 namizəddən ibarət siyahı dərc edəcək.

Xatırladaq ki, bir müddət əvvəl «France Football» və FİFA mükafatın birgə təqdimatına dair əməkdaşlığa son verib. «France Football» «Qızıl top» mükafatını 1956-cı ildən, FİFA isə 1988-ci ildən «İlin futbolçusu» mükafatını təqdim edib. Tərəflər arasında 2010-cu ildən «Qızıl top»un birgə mükafatlandırılmasına dair beş illik müqavilə mövcud olub. Hansı ki, ilin ən yaxşı futbolçusu beynəlxalq futbol qurumunun təşkilatçılığı ilə milli komandaların məşqçiləri, komanda kapitanları və media təmsilçiləri tərəfindən səsverməsi nəticəsində müəyyənləşirdi.

Maraqlıdır ki, FİFA «Qızıl top»u təqdim edəndən bəri yalnız iki futbolçu mükafata layiq görülüb. İspaniyanın «Barselona» klubunun argentinalı hücumçusu Lionel Messi - dördqat (2010, 2011, 2012, 2015) və Madridin «Real» komandasının portuqaliyalı forvardı Kriştianu Ronaldo - ikiqat (2013 və 2014) qalib olub.

## Dünya çempionatında on medal

Bolqarıstanın Blaqoyevqrad şəhərində qol güləşi üzrə XXXVIII dünya çempionatı və XIX paraarmrestlinq üzrə mundial başa çatıb. Yarışda ölkəmizi Avropa Qol Güləşi Federasiyasının vitse-prezidenti, Azərbaycan Qol Güləşi Federasiyasının prezidenti Cəsarət Əhmədovun rəhbərliyi altında doqquz idmançı təmsil edib.

Komandamız yarışı 3 qızıl, 4 gümüş və 3 bürünc medalla başa vurub. Həmyerlilərimizdən Ramazan Rüstəmov, Qismət Vəkilov və Vilayət Namazzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Yığmamızın digər üzvlərindən İsgəndər Mustafayev, Hüseyn Əmənli gümüş, Toğrul Şahlarlı bürünc medal qazandığı halda, Nemət Vəkilov və Minabəddin Qurbanov həm ikinci, həm də üçüncü yeri tutublar. Ramazan Rüstəmov, Hüseyn Əmənli və Toğrul Şahlarlı yarışların gedişində erməni idmançıları ilə qarşılaşıblar. Hər üç idmançımız bu ölkənin təmsilçisinə heç bir şans vermədən görüşlərini qələbə ilə başa vurublar.

Qeyd edək ki, mundiala 60-dan çox ölkənin 1200 idmançısı qatılıb.

## mozaika

### texnologiya



# İnsanın sağlamlıq vəziyyətini izləyən qurğu

«Radioelektron texnologiyalar» konserni insan orqanizminin əsas göstəricilərini qeydə alaraq, məlumatları tibbi mərkəzə ötürən yeni teletibbi qadjetini təqdim edib. «CardioMarker» adlı qurğu iki hissədən ibarətdir: ürək hissəsinə bərkidilən daşınan modul elektrokardioqram, temperatur və nəbz kimi göstəriciləri qeydə alır, xüsusi «ağıllı» qolbaq və smartfon üçün proqram isə məlumatları pasiyentə, həkimə və hətta təcili yardım briqadasına göndərə bilir. Bütün məlumatlar mühafizə olunmuş mobil və radioəlaqə kanalları vasitəsilə real vaxt rejimində ötürülür ki, bununla da məlumatların məxfiliyi qorunur. Pasiyentin göstəriciləri normadan ciddi şəkildə fərqləndikdə, qurğu həkimə və ya ən yaxın məsafədə olan təcili tibbi yardım briqadasına xəbərdarlıq göndərir.

«CardioMarker» aritmiya, işemiya (infarkt) hallarını aşkarlaya, yorğunluq dərəcəsi, stress səviyyəsi, orqanizmin bərpa olunma qabiliyyəti haqqında məlumatları əldə edə bilir. Qeyd olunan funksiyalar ürək-damar xəstəliklərinin izlənməsi və profilaktikası üçün vacibdir. Bundan başqa, qurğu idman tibbi sahəsində idmançıların göstəricilərinin yaxşılaşdırılması üçün istifadə oluna bilər.

### kosmos

# Marsın məskunlaşdırılması planı hazırdır

«SpaceX» kompaniyasının başçısı İlon Mask Marsın məskunlaşdırılmasına başlamaq niyyətindədir. Bu barədə o, «Günəş sistemi planetlərinə səyahət etməyə imkan verəcək» nəqliyyat vasitəsinin təqdimatı zamanı bildirib. Şirkət nümayəndələri hazırladıqları kosmik aparatı yaxın illərdə Marsa göndərmək niyyətindədirlər. Bu aparat Ayda yanacaqdoldurma imkanlarına da malik olacaq.

«SpaceX»in rəhbəri hələ ki, insanı Marsa aparmağın dəyərini 10 milyard dollar həcmində qiymətləndirib. Onun sözlərinə görə, gələcəkdə layihə uçuş qiymətini 200 min dollardan və hətta ola bilər ki, 100 min dollardan ucuz etməyə imkan verəcək. Mask uçuşları elə təşkil etməyə söz verib ki, hazırlıq üçün cəmi bir neçə gün kifayət etsin. Lakin o, planetlərarası missiyalar üçün kompaniya tərəfindən hazırlanan aparatdan daha iri kosmik gəmilərin lazım gəldiyini etiraf edib.

### tədqiqat

# Ürək-damar xəstəlikləri «gəncləşir»

Yeni tədqiqatlar zamanı həkimlər ürək xəstəliklərinin profilaktikasına başlamaq üçün lazımi yaşı müəyyən edə biliblər. Kompleks müşahidələrin təşəbbüsçüləri Hindistanın Mumbay şəhərinin həkimləridir. Onların sözlərinə görə, müasir həyat şəraiti mürəkkəb xəstəliklərin ortaya çıxmasına şərait yaradır. Tədqiqatçılar getdikcə daha tez-tez gənc oğlan və qızlarda ürək xəstəliklərinin yaranmasına dair yeni hallar qeydə alırlar. Laboratoriya sınaqlarının müəllifləri bildirirlər ki, ürək xəstəliklərinin profilaktikasına 15 yaşından başlanmalıdır.

Baş beyin yetkinlik dövrü başa çatandan sonra tam formalaşır. Buna görə də həmin dövrdə həm oğlan, həm də qızların sağlamlığına xüsusi diqqət yetirilməlidir. Uşaqların əhval-ruhiyyəsində valideynlərin rolu çox böyükdür. İdmanla məşğul olmaq, sağlam qidalanmaq və stressli halların olmaması ürəyin möhkəmlənməsinə kömək edir.

### tarix

# Qədim qəsrin xarabalıqları arasında...

Arxeoloqlar Yaponiyanın Okinava adasında yerləşən orta əsrlərə məxsus qəsrin xarabalıqları arasından dörd ədəd qədim Roma sikkəsi tapıblar. Rentgen analizi göstərib ki, sikkələrin üzərində Roma imperatoru Böyük Konstantinin təsviri həkk edilib. Bu, alimlər üçün tamamilə gözlənilməz hadisə olub.



UNESCO-nun Dünya irsi siyahısına daxil edilmiş XII-XV əsrlərə aid Katsuren qəsrində qazıntılar yerli Təhsil İdarəsinin əməkdaşları tərəfindən aparılıb. Alimlərin rəyinə görə, Okinava əvvəllər Çin və Cənub-Şərqi Asiya ölkələri ilə geniş ticarət əlaqələri saxlayıb. Yeni tapılan qiymətli tarixi material isə təsdiq edir ki, bu ada Qərb dünyası ilə də əlaqələrə malik olub. Sikkələrdən hər biri 1,6-2 santimetrə bərabər dairə şəklindədir. Həddindən artıq korroziyaya uğradığından onların əvvəllər malik olduğu tam görüntü haqda fikir yürütmək çətindir.

Qazıntıların aparıldığı ərazidə tapılan daha bir sikkənin isə həmin vaxt adada mövcud olan Ryukko dövləti ilə sıx əlaqələr saxlayan Osmanlı imperiyasına məxsus olduğu güman edilir.

### fauna

# Naxçıvanda bəbir balaları

Bu ilin yay aylarında Naxçıvan Muxtar Respublikasında yerləşən Həsən Əliyev adına Zəngəzur Milli Parkında bəbir balalarının fotoşəkli qeydə alınıb. Fotoları Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və IDEA (Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq) beynəlxalq ekoloji kampaniyası Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) ilə birgə bəbirlərin populyasiyasının bərpası ilə bağlı keçirdiyi layihə çərçivəsində quraşdırılmış foto-tələlər vasitəsilə əldə etmək mümkün olub.

Ümumiyyətlə, mütəxəssislər son 5 ildə Qafqaz bəbirlərinin Azərbaycan ərazisində öz areallarına qayıtması prosesinin intensivləşdiyi qənaətindədir. Buna qədər yeni bəbir fərdlərinin görüntüləri 2012-ci ilin sentyabrında, 2013-cü ilin fevral-mart aylarında, 2014-cü ilin yanvar və 2015-ci ilin noyabr ayında Həsən Əliyev adına Zəngəzur Milli Parkında, 2012-ci ilin oktyabrında və 2013-cü ilin may ayında isə Hirkan Milli Parkında qeydə alınıb. Son illər ərzində Naxçıvan MR-də 7 bəbir müşahidə olunub, onlardan 4-ü erkək, 1-i dişi, 2-si isə baladır.

Qeyd edək ki, ETSN və İDEA beynəlxalq ekoloji kampaniyasının dəstəyi, Ümumdünya Təbiəti Mühafizə Fondu ilə birgə həyata keçirilən bəbirlərin populyasiyasının bərpası layihəsi öz nəticələrini verir. Aparılan monitorinqlər nəticəsində bəbirin demək olar ki, Azərbaycanın yaşadığı bütün areallarında fotoşəkilləri çəkilib. Nəticədə ölkənin müxtəlif areallarında bəbirlərin sayında artım müşahidə olunaraq davamlı populyasiyasının yarandığı faktlarla sübuta yetirilib.



Mütəxəssislərin rəyinə görə, Azərbaycan təbiətinin nadir heyvan növlərinin öz areallarına qayıtması prosesi heç də təsadüfi xarakter daşımır. 2000-ci illərin əvvəlinə kimi respublikada bəbirin mövcudluğu barədə ciddi elmi məlumat olmayıb. Lakin son 16 ilin tədqiqatları ölkəmizdə bəbir populyasiyalarını 3 ərazidə - Hirkan meşələri, Naxçıvan və Mingəçevir su anbarının ətrafındakı arid landşaftlarda müəyyən etməyə imkan verib.

### Müdriklər deyib ki...

*«O, sürüşdü, büdrədi, yıxıldı, durdu, yolunu müəyyənləşdirdi və irəlilədi. Bütün qələbələrin sirri elə bundadır».*

*Viktor Hüqo (1802-1885)*

